**Yaşar Qəhrəmanov**

# *Sənsiz*
# *keçən*
# *ömür…*

**Bakı-2016**

**Redaktor: Knyaz ASLAN**

**Dizayner: Sahib Adilov**

**Yaşar Qəhrəmanov "Sənsiz keçən ömür"**
**Bakı, "MBM" MMC, 2016, 144 səh.**

*Kitabda yarıda qırılmış bir sevgi dastanının ürəkləri dağlayan göynərtiləri öz ifadəsini tapır. Müəllif vaxtsız itirdiyi ömür-gün yoldaşının xatirəsini yaddaşında yaşayan saysız-hesabsız əhvalatlardan bir çoxunu sözün işığında əbədiləşdirməklə təsəlli tapmağa çalışır.*

**ISBN 978-9952-29-122-3**

**© Y.Qəhrəmanov, 2016**
**© "MBM" MMC, 2016**

## Ön söz

## HİCRANIN GÖZ YAŞLARI

Bəzən insan itirdiyinin əsl dəyərini onu axtarıb tapa bilməyəndə düzgün verə bilir. Daha doğrusu, itirdiyini bir daha tapa bilməyəcəyini dərk edən Adəm oğlu ümidsizliyə qapılır. Onu həyata bağlayan, yaşayıb-yaratmağa səsləyən qüvvənin qəfidən sönməyə doğru yönləndiyini, işığının azaldığını acı-acı hiss etdikcə, canı gücdən, gözü nurdan, dizi taqətdən düşdükcə, canından can ayrıldığının fərqinə varmağa, bu fani həyatda təkləndiyini dərk etməyə başlayır...

Tale?.. Bəxt?.. Alın yazısı?.. Yoxsa sirrini hələ də bilmədiyimiz sehr?...

Gözəgörünməz göz yaşları... Əslində ürək sızıltıları ilə elə ürəyin özünü yandıran sel yaşları...

İlahi eşqin həyat faciəsini, sevginin dünya boyda iztirablarını, sədaqətin, səadətin, cəfanın, vəfanın sirli-sehirli tərənnümünü min illərdən bəri ünlü şairlər, yazıçılar qələmə almış, əbədiləşdirmişlər. Amma bu da sirr deyil ki, hər dünyaya yenicə gələn insan özündən əvvəlkilərdən heç birinə bənzəmədiyi kimi, zaman-zaman yer üzündə yaşanan sevgilər də bənzərsiz olur. Hər sevən elə bilir ki, indiyə qədər onun kimi sevən, hər sevilən elə bilir ki, onun qədər sevilən olmayıb... Bəlkə də bu belədir... Yoxsa dünya bu dərəcədə gözəl görünməzdi.

Yaşar... Kəmalə... Sadəcə Yaşar... Sadəcə Kəmalə...

Bu adların arasında üstəgəl işarəsi da yazmaq olar, çıxma işarəsi də... Pak, ülvi, saf məhəbbətin timsalı kimi, bu ayrılmaz cütlüyün övladlarının, nəvələrinin rəmzi kimi üstəgəl işarəsi yerinə düşür...Həyatın ən kədərli anlarını yaşadan, dəlicəsinə sevdiyi insanın biryolluq ayrılıb getdiyini düşünəndə çıxma işarəsi özünü yetirir...

Yaşarın ürək qanı ilə yazılmış elegiya... Baş qəhrəmanı Kəmalə... "Sənə bir şey olsa, dünyanı dağıdaram!.." – deyən, fəqət qəfil gedişi ilə Yaşarın sirli dünyasını dağıdıb gedənKəmalə... Görəsən özünün xəbəri varmı?...

Nə yaxşı özündən sonra övlad, nəvə yadigarları qaldı... Nə yaxşı ki, sevincli, səadətli, səmimiyyətli, sədaqətli çağları birgə yaşadılar... Amma  bircə bu ayrılıq olmayaydı... Əbədi ayrılıq...

"Unutmaq zaman istəyir," – deyirlər... Amma nə unutmaq mümkündür, nə də unudulmaq... Sevən ürək sızıldaya-sızıldaya paralanan, sozalaya-sozalaya qaralanan yarısını axtarınca duyğular həzin sözə, xatirələr kövrək misraya dönür, ədəbiləşir, əbədiləşir... Beləcə, şirinli-acılı talenin "Yaşar-Kəmalə dastanı" boy göstərir... Nə qədər sevgi varsa, bu dastanın ömrü də o qədər olacaq...

**Knyaz ASLAN**
**Şair-publisist**

# Bir Mələk... Adı Kəmalə....

Bu kitab haqqında bir neçə kəlimə yazmağı özümə haqq bilirəm, müəllifin ürək yanğısının ən yaxın şahidlərindən biri kimi... Eyni atəşdə ürəyi yanan, eyni acıdan içi sızlayan, eyni gözlərdən mədət uman biri kimi...

"Sənsiz keçən ömür..." Bir həyat hekayəsi... Yara həsrət qalmış bir yaralının yanğı dolu hekayəsi...

Kitabı yaradan hər bir sətir, hər bir söz Yaşar bəyin hicran atəşi ilə yoğrulub... Yaşar bəyin Sətirlərə hopan hər həsrət acısında Kəmalə xanım sanki yenidən doğulub... Bununla belə yenə də sözlərlə ifadə etdikləri əslində içindəki hicran dağının görünən tərəfidir, görünməyən çoxluqlar isə qəlbinin dərinliklərindəki kəlimələrdə gömülü qalıb..

Bəzi acılar vardır insanı susduran. Içinə gömülən, içindəki bütün duyğuları dağıdan,üsyanı şahə qalxan dili susan... Geridə böyük uçqunlar buraxan... içini yandıran... Elə bir yanğı ki, hayqırmaq istəsən bircə kərə acizliyindən dili parçalanan...

Anladılmaz ağrılar vardır. Heç keçməyən,heç səngiməyən... Zamanın geridə qoya bilmədiyi,dərman ola bilmədiyi yaralar... "O Gün" müş kimi yandırıb-yaxıb, yıxıb-məhv edib, hayqırdıb, qışqırdıb sonra susduran yaralar... Darmadağın edən acılar... Qəlbinin, gözünün, zehninin heç susmadığı, dilinin aciz qaldığı yaralar... Deyil bir il, iki il, yaşayacağın ömür boyunca keçirəcəyin illər sonrası belə həp xatırlanıb, hayqırılıb, yanıb-məhv olub, ağlayıb, ağlayıb, çarəsizcə susacağın yaralar... Anladılmaz yaralar...

“O Gün” əbədi olaraq üzərinə bir əlbisə kimi oturan Tənhalıq hissini heç kimin dolurmayacağı boşluqlar...

*Bilirsən sənsizlik necə çətindir?*
*Yazmaq istəyirəm, sözümə sığmır.*
*Kişiyəm, ağlamaq ar gəlir mənə,*
*Di gəl göz yaşlarım gözümə sığmır!*

*Üzümə gülürdü dünən yer üzü,*
*Bu səhər baxışlar zəhərdir, zəhər.*
*Dünən tükənməyən xəzinə idim,*
*Soyuldu sonadək qəlbimdəkilər.*

*Əlim işə yatmır, otağım zindan,*
*Yollara çıxıram, yol üzü dönük.*
*Sənsiz bu dünyanın dənizi laldır,*
*Göyləri bulanıq, günəşi sönük...*

*Bəlkə heç bitmədi bu ezamiyyət...*
*Bilirsən sənsizlik necə çətinmiş?*
*Sən demə halalca yediyim çörək,*
*Udduğum hava da məhəbbətinmiş...*

Sabir Rüstəmxanlının müəlliflik etdiyi bu şeir bir il öncə çıxdı rastıma. Oxuyan anda mənə sizi xatırlatmışdı ...Sanki sizi görüb, sizin qəlbinizdən yazmışdı... Saxlamışdım bir kənarda bu şeiri... itirmək istəməmişdim... Zamanı gəldi...

Ölüm haqqında bir qədər fərqli düşünənlərdənəm əslində... Mənəvi ölümün cismani ölümdən daha acı və gerçək yoxoluş olduğunu hesab edənlərdənəm... Əsərin baş qəhrəmanı Kəmalə xanımın cismani yoxluğu onu heç bir qəlbdə yox edə bilmədi... Edə bilməzdidə... Hələ də

hamının bütün həyatında Onun toxunuşunun əl izi qalıb... Hələ də onun qəlbinin oduna qızına bilirik... Elə böyük bir mənəviyyat daşıyıb ki, üzərində yoxluğunda belə onunla fəxr edə bilirik... Hamımızın həyatından bir Mələk keçdi... Adı Kəmalə...Arxasınca ətri hələ də duyulur...

Onun həyatından bir mələk keçdi... Adı Kəmalə... Adı Kamış.. Adı sevgi... Adı vəfa...

İndi Bir ayrılıq hekayəsimi deyək bu kitaba ya bir sevgi dastanı mı? Oxuyun və özünüz qərar verin...

Mən isə sonda Sadəcə **TƏŞƏKKÜR ETMƏK** istəyirəm əsərin müəllifinə...

*Onu bu qədər sevdiyiniz üçün...*
*Ona bu qədər hörmət etdiyiniz üçün...*
*Ona bu qədər dəyər verdiyiniz üçün...*
*Təşəkkür edirəm Sizə,*
*Xalamı hər zamanYAŞATDIĞINIZ üçün....*

***Fəridə Nadirqızı***
***AMEA-nın elmi işçisi və doktorantı***

# HƏSRƏTİN SONU GÖRÜNMƏYƏN NALƏSİ

Mən bu cızmaqaraları həyatımın mənası, həyat yoldaşım, can sirdaşım, ürək dostum Kəmaləmi itirdikdən sonra yazmaq qərarına gəldim.

Əvvəlcədən deyim ki, mənim heç vaxt yazı-pozu işlərindən xoşum gəlməyib. Ona görə də bu cızmaqaraları kim oxusa, qarşısına çıxan səhvləri ədəbiyyatdan kənar olan bir insanın səhvləri kimi qəbul etsin.

Bu sözlər, bu sətirlər ürəyimdə yığılıb qalmış və heç kimə aça bilmədiyim, daima ürəyimi alovlar içində saxlayan bir həsrətin, sonu görünməyən naləsidir. O nalə ki, məni bütün həyatım boyu alovlar içində yandıracaq...

*Mən şair deyiləm, səhv axtarmayın*
*Yazdığım hər sətir başında mənim.*
*Içimdə alovlu bir ocaq yanır,*
*Yanır ürəyimin başında mənim.*

*Yazdığım hər sözdə səhv axtarmayın,*
*Yarımçıq sevgimin naləsidir bu.*
*Tüstüsü başımdan göylərə çıxan,*
*Bir sönən ocağın istisidir bu.*

Demək dünyada ölümdən də ağır dərd varmış. Ölməyə nə var ki. Ayrılıq, həsrət ölümdən də betərmiş.

*Həsrətim sonuna çataydı mənim,*
*Bir qorxunc yuxuya dönəydi bunlar.*
*Bir gün ayılaydım mən bu yuxudan,*
*Onu otağımda görəydim, Allah.*



# AĞAYEVA KƏMALƏ SABİR QIZI

***O, 1963-cü il noyabrın 20-də Qubadlı rayonunda anadan olmuşdur. Ailədə dörd uşaq idilər: iki bacısı Aygün və Cəmalə, bir qardaşı Vüqar.***



Qardaşı və bacıları hündürboy olsa da, mənim Kəmaləmin ömrü qısa olduğu kimi boyu da balaca idi. Elə bil Allah onun boyunu balaca eləmişdi ki, mənim boyuma uyğun gəlib mənim qismətimə düşsün.

O, Qubadlı rayon orta məktəbini "əla" qiymətlərlə bitirib Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun ingilis dili fakültəsinə daxil olur. Orta məktəbdə müəllimlərinin sevimli şagirdi olduğu kimi ali məktəbin müəllim və tələbələrinin sevimli dostuna çevrilir.

Ali məktəbdə oxuduğu müddətdə onun çoxlu rəfiqələri var idi. Mən hətta onlara rəfiqə yox, bacı deyərdim. Bu rəfiqələrin bir neçəsi ilə biz hələ də ailəvi dostluq edirik.

Bu qızlardan İradə və Adilə Kəmalənin sağlığında onun bacıları sayılırdılarsa, Kəmalədən sonra onlar mənim bacılarımdı.

Kəmalə 1986-cı ildə bu institutu bitirib öz doğma rayonu olan Qubadlıya qayıdır və oxuduğu rayon orta məktəbinə ingilis dili müəlliməsi təyin olunur.

Onun ömrü qısa olduğu kimi müəllimlik fəaliyyəti də çox qısa olur.

1986-cı il noyabrın 7-də biz Kəmalə ilə xoşbəxt ailə həyatı qurduq. Mən onu götürüb Bakıya gəldim.

Biz çox xoşbəxt yaşayırdıq. Allahım ona nəyi qısa vermişdisə, onun yüz qatı qədər ağıl, düşüncə, qabiliyyət, dərrakə, səmimiyyət vermişdi. Hələ bir dəfə də olsun o məndən heç nə tələb etməmişdi. Nəyimiz vardısa, biz ona şükür edib mehriban dolanırdıq.

O vaxtlar maddi durumumuz yaxşı deyildi. Biz bir müddət kirayələrdə yaşasaq da, maddi durumumuz aşağı olsa da, bu, bizim xoşbəxtliyimizə zərrə qədər də zərər gətirmirdi. O, məndən heç nə tələb etmirdi. Ona görə də biz xoşbəxt yaşayırdıq.



**Adilə və İradə**

Nəhayət, 1988-ci ildə bizə iki böyük xoşbəxtlik nəsib oldu. Biz özümüzə ev aldıq və böyük qızımız Sevinc dünyaya gəldi. Qızım adı kimi özü ilə bərabər bizə böyük sevinc də gətirdi. Get-gedə durumumuz düzəlir, sevincimizin üstünə sevinc gəlirdi. 1990-cı il də Kəmaləmin ad günündən bir neçə gün sonra ikinci övladımız Kənan dünyaya gəldi. Artıq biz möhkəm və xoşbəxt bir ailəyə çevrilmişdik. O öz övladlarını canından çox sevirdi. Kənanı həmişə müdafiə edərək "o mənim oğlumdur, onunla işin olmasın" deyərdi.

1995-ci ildə ən əziz bayramımız olan Novruz bayramında Allahın bizə verdiyi bayram payı kimi bizim sonbeşiymiz olan Ülkərimiz dünyaya gəldi. Ülkərim özü ilə bizə ruzi-bərəkət gətirmişdi.

O günlər deyə bilərəm ki, həyatımın ən xoşbəxt günləri idi. Ona görə xoşbəxt idim ki, övladlarım atalı-analı, nənəli-babalı xoş günlər keçirirdilər.



Demək insanın xoş günləri olduğu kimi çətin və ağır günləri də olurmuş. Mənim də ağır günlərim 1996-cı ildən başladı. O gözəl ürəyi olan Kəmaləm ürək xəstəliyinə tutuldu.

*Ömrü az olurmuş xoşbəxtliyin də,*
*Köçəri quş kimi uçub gedirmiş.*
*Səhərlər şəfəqdə doğan günəş tək,*
*Axşamlar ovcundan uçub gedirmiş.*

Bax belə, onun bu xəstəliyə düçar olması mənim həyatımı qaraltmışdı. Mən bütün varlığımla çalışırdım ki, ona kömək edim. Mən Bakıdakı bütün həkimlərə göstərdim onu. Hərə bir diaqnoz qoyur, hərə bir cür müalicə edirdi. Amma heç nəyin xeyri yox idi. Mən ona baxanda varlığımdan yox olurdum.

Axırda mən onu İrana aparmaq qərarına gəldim. Atası Sabir dayı ilə birgə onu götürüb İrana apardıq. Orada bizim Qulam adında bir dostumuz vardı. Biz onun köməkliyi ilə dünyanın ən güclü həkimlərindən biri olan Mandiqarın qəbuluna düşdük. Həkim ilkin müayinələrdən sonra Kəmaləmi əməliyyat eləməyə söz verdi. Anjoqrafidən sonra əməliyyat gününü təyin etdi. Biz Kəmaləni xəstəxanaya yatırdıq. Ertəsi gün o əməliyyat olacaqdı. Mən onun yanından ayrılmaq istəmirdim. Bu əməliyyat çox ağır əməliyyat idi, hər şey ola bilərdi. Ancaq xəstəxananın qaydalarına görə biz onu orada qoyub getməli idik. Qəhər məni boğurdu, amma mən bunu ona hiss etdirmirdim. Ona ürək-dirək verirdim. Biz onu orada qoyub otelə getdik.

Həmin gün həyatımın ən ağır günlərindən biri idi. O gecə mən səhərə qədər Allaha dua edib Kəmaləmi qorumasını istədim. Bu bəndi mən həmin gecə qəzetin qırağınayazdım:

*Ayıla bilməsən gəlib yuxuma,*
*Lənətlər yağdırıb söyərsən məni.*
*Boğub əllərinlə yumub ağzımı,*
*Bir soyuq məzara qoyarsan məni.*

Biz səhəri gün tezdən xəstəxanadaydıq. Kəmaləni nə vaxt əməliyyata götürəcəklərini gözləyirdik. Mən özümə yer tapa bilmirdim. Allaha yalvarırdım: "Allahım, Sən mənim Kəmaləmə kömək ol!"

*Səni and verirəm, böyük Yaradan,*
*Görünməz İlahi, ey böyük Xudam,*
*Ay Məhəmməd, ay Məkkə, ay Rza imam,*
*Sən özün kömək ol, kömək ol bizə.*

*Məhəmməd peyğəmbər, Fatmeyi Zəhram,*
*Ya imam Hüseyn, ya imam Rzam,*
*Ya Əli, İbrahim, ya seyid Həsən,*
*Sən özün kömək ol, kömək ol bizə.*

Yaman peşiman olmuşdum. Ürəyimdə çox narahat idim. Kaş onun əməliyyat olmasına heç icazə verməyəydim. Kaş çernelli barmağımı o kağıza basmayaydım.

*Basıb barmağımı qara çernelə,*
*Sənin ölümünə fərman vermişəm.*
*Qollarım dibindən qopub düşəydi,*
*Basdığım barmağım qırılaydı kaş.*

*Basdığım ağ kağız gözüm olaydı,*
*Gözlərim heç nəyi görməyəydi kaş.*
*Gözlərim ağappaq olaydı mənim,*
*Çıxıb didələrim töküləydi kaş.*

Sonra düşündüm ki, "yox, qoy əməliyyat olunsun. Qoy onun canı birdəfəlik bu əzabdan qurtarsın."

*Dedim ürəyinə bir əlac edim,*
*Səni bıçaq altına verməyəydim kaş,*
*Sənin ürəyini doğrayan bıçaq,*
*Mənim ürəyimə sancılaydı kaş.*

Deyir "sən saydığını say, gör fələk nə sayır." Bizim bu həyəcanlarımız əbəs yerə imiş. Bir müddət sonra bizə bildirdilər ki, əməliyyat mümkün deyil. Çox risk var. Ona görə də əməliyyat olmadı. Dərdimin üstünə bir az da dərd gəldi. Biz kor-peşiman qayıdıb Bakıya gəldik.

Mən bütün varlığımla çalışırdım ki, onun müalicəsini edim, könlünü alıb, həmişə yanında qalım. Yenə ümidlərimiz öz həkimlərimizə qaldı. Onların da hərəsi bir cür diaqnoz qoyur, öz bildikləri kimi müalicə edirdilər. Kəmaləm isə gün keçdikcə pisləşirdi.

Evimiz çox zaman xəstəxana otağını xatırladırdı. Hamı ona başçəkmək üçün evimizə axışırdı. Hamı istəyirdi ki, ona kömək etsin, onun könlünü alsın. Onu iş görməyə qoymurdular. Mən hamının adını çəkmək istəmirəm. Qısaca deyim ki, bacılar, qardaşlar, qohumlar ona dəstək olurdular. Ancaq bunların içərisindən iki nəfərin adını çəkmək istəyirəm: Təranə və Vüsalə. Onların Kəmaləyə çox köməyi olub.



**Təranə**



**Vüsalə**



**Qulam ağa və Nahid xanımla**

Bax belə, günlərimiz, aylarımız bir-bir gəlib keçirdi. Bir ili biz belə yola saldıq. Bir gün iranlı dostlarımız zəng edib bizə bildirdilər ki, Tehranda bir yaxşı həkim var, Kəmaləni ona göstərmək lazımdı. Mən ləngimədən Kəmaləni götürüb İrana getdim. İranlı dostlarımız bizi qarşılayıb evlərinə apardılar.

Mən onu da deyim ki, iranlı dostlarımız bizim çox əziyyətimizi çəkiblər. Ən çox da Nahid bacı. O səhəri gün bizi bir neçə yerə apardı. Biz bütün analizləri verib qurtardıq. Sonra da həmin dedikləri həkimin yanına getdik. Həkim öz klinikasında bütün xəstələri növbə ilə qəbul edir, lazımi aparatlardan keçirir, diaqnozu düzgün təyin etdikdən sonra müalicəyə başlayırdı.

Bir az sonra bizi də qəbul etdi. Bu həkimin müalicə metodu bizim həkimlərin müalicə metodundan tamam fərqli idi. O insanlara mənəvi dəstək olur, Allaha dua etməyi tövsiyə edirdi.

Mən o həkimin qəbulundan sonra rahatlaşmışdım. Biz onun dediklərinə əməl edir, müalicəsini düzgün yerinə yetirməyə çalışırdıq. Bütün dərmanları İrandan alıb gətirirdik. Mən ildə iki dəfə Kəmaləni o həkimin yanına aparırdım. Kəmaləm nəhayət ki, yavaş-yavaş yaxşılaşırdı. Mən çalışırdım ki, onun ürəyi istəyən nə varsa yerinə yetirim. Ona xoş sözlər deyib, könlünü alıb, əzizləyirdim. Həmişə onunla zarafat edərkən ona "şəkərim, şirinim, gombulum" deyərdim.

*Mən işdən çıxanda həvəslə hər gün,*
*Tez sənin yanına qaçıb gələrdim,*
*Bir az əzizləyib, sevib, oxşayıb,*
*Şəkərim, gombulum, gülüm deyərdim.*

O nə qədər xəstə olsa da, uşaqlarının başının üstündəydi. Mən özümü xoşbəxt hiss edirdim. Aylar, illər keçirdi, uşaqlarımız böyüyürdü. Mən Allaha hər gün dua edib yalvarırdım ki, Kəmalə uşaqların toyunu görsün.

"Qudalar" deyəndə mən gözü yaşlı ora tək çıxmayım. Ancaq o, təkcə Sevincin toyunu gördü. O biri uşaqların toyunu görmək ona qismət olmadı.

O həmişə cehizlik nə alırdısa, iki dənə alırdı. Mən ona deyirdim ki, "Ülkər hələ balacadı. Onun vaxtı çatanda biz çıxıb nə lazımsa hamısını bir gündə alarıq." O isə cavabında: "Mənə etibar yoxdu, məni bilmək olmaz" deyərdi.

Sevincin toyu 11.11.2011 tarixində oldu. Onun nə qədər sevindiyini, bütün işləri necə həvəslə gördüyünü kimsə təsəvvürünə gətirə bilməz. Bunlar hamısı mənim gözümün qarşısında olduğu üçün mən həmişə Allahdan onun üçün biraz da ömür istəyirdim ki, o, Ülkər qızımı da ürəyi istəyən kimi yola salsın. Ancaq belə olmadı...

2012-ci ildə bizim iranlı həkim Amerikaya köçdü və biz onun izini itirdik. Kəmalənin dərdini o həkimdən dahayaxşı heç kim bilmirdi. Elə o gündən sonra mənim ümidlərim hər yerdən kəsilmişdi. Biz başqa ölkələrdə yeni həkim axtarışındaydıq.

2013-cü il avqust ayının 18-də bizim ailəmizə daha bir sevinc qismət oldu. Bizim nəvəmiz, İlyas balamız dünyaya gözlərini açdı. Hamımız sevinsək də Kəmaləm hamıdan iki qat artıq sevinirdi. Sanki o bilirdi ki, onun görüb-görəcəyi nəvə elə bu olacaq.

2013-cü il. Kəmaləmin ad günü yaxınlaşırdı. O həmişə ad günü keçirmək istəmədiyini deyirdi. Buna görə də bir-iki gün sonra olan Kənanın ad gününü keçirirdik.

Ancaq mən bu dəfə ondan xəbərsiz Kənana dedim ki, yaxşı bir yerdə Kəmalə üçün yaddaqalanbir ad günü keçirək. Biz bu cür də etdik. Bir restoranda yer ayırıb qohumları ora dəvət etdik. Məclisin başlamasına bir neçə saat qalana qədər biz ona heç nə demədik və o, bunu öyrənəndə gözlərini doldurub kövrəldi. Çox gözəl məclis keçdi. Onunla bərabər hamı kövrəlmişdi. Elə bil hamı onun sonuncu ad günü olduğunu bilirmiş kimi...

2013-cü ilin dekabr ayında Vahidlə Kənan onu Almaniyaya apardılar. Bütün müayinələrdən sonra həkimlər onu əməliyyat etməyə söz verdilər.

2013-cü il dekabr ayının 19-da mənim Kəmaləmi Berlinin ən gözəl xəstəxanalarının birində əməliyyat etdilər.



Həmin gün həyatımın ağır günlərindən biri idi. Mən tez-tez uşaqlara zəng edib bir məlumat almaq istəyirdim. O gün göz yaşlarımı iş yoldaşlarımdan gizlətmək üçün düz dörd saat maşında oturub bu sözləri yazdım:

*Bilsəydim həmişəlik çıxıb gedirsən,*
*Daş olub yolunu kəsərdim sənin.*
*Diz çöküb qarşında, yalvarıb sənə,*
*Ömrümü ömrünə qurban edərdim.*

*Bilsəydim Allahım ayırır bizi,*
*Mən səni bağrıma basıb öpərdim.*
*Qoymazdım sinənə bir bıçaq dəyə,*
*O bıçaq altına özüm girərdim.*

*Bilsəydim ürəyim yaşadar səni,*
*Söküb ürəyimi sənə verərdim.*
*İnan ki, əzizim, sənin yerinə,*
*Ölümə könüllü özüm gedərdim.*

Bir saat da keçdi. Mənə bir mesaj gəldi. Vahid yazmışdı: "əla." Yalnız bir söz. Bunu oxuduqdan sonra mən həm sevinir, həm də göz yaşlarımı saxlaya bilmirdim. Onun bu əməliyyatdan sağ çıxdığını göz yaşlarına boğula-boğula bütün qohumlara xəbər verdim. Hamı sevinir, onun yolunu gözləyirdi. Bir neçə gündən sonra Vahid Bakıya qayıtdı. Hamı onun başına yığışmışdı. O, Kəmalənin əməliyyatının çox uğurlu keçdiyini deyirdi. Mənim sevincimin həddi-hüdudu yox idi.

Nəhayət, Kəmalə 2014-cü il yanvar ayının 3-də Bakıya qayıtdı. Hava limanında onu qarşılamaq üçünxeyli adam toplaşmışdı. Hamı əlində gül-çiçəklə onu gözləyirdi. Mən onu əlil arabasında görəndə dodaqlarım əsdi. Mən göz yaşlarımı güclə gizlədib onun saçlarından öpdüm.

Biz evə çatanda həyət qapısından evə qədər gül ləçəkləri düzülmüşdü. O, hər şeyi görəndə kövrəlirdi.

Beləcə, bir neçə gün keçdi. Yanvar ayının 18-i mənim ad günüm idi. Hamı sağlıq demişdi. Kənana söz çatandaayağa qalxıb üzünü mənə tutaraq dedi: “Ata, artıq mama da əməliyyat olunub. Hər şey yaxşıdı. Sən həmişə çətinə düşəndə bir söz işlədirsən: “ey vah”. Mən istəyirəm ki, bir də o sözü işlətməyəsən.”

Doğrudan da o günlər mənim həyatımın ən xoş günləri idi. Mən işdən evə tez gəlir, Kəmaləmin yanında çox vaxt keçirməyə çalışırdım. Yuxarı mərtəbədəki dibçəklərdə açan gülləri bir-bir gətirib onun yatdığı yerin yanına qoyurdum ki, baxıb sevinsin.

Bizim sevincimiz çox çəkmədi. O qorxunc fevral ayı gəlib çatdı. Adını dilimə belə gətirmək istəmədiyim o ayın 2-si onun həyatına son qoyduğu kimi mənim də həyatda nəyim varsa aldı əlimdən. Çox soyuq boranlı bir gün idi. Yollar buz bağlamışdı. Bax belə bir gündə mənim Kəmaləm mənim qollarım arasında gözlərini əbədi olaraq bu dünyaya yumdu...

Mən o dəhşətli gündən çox yazmaq istəmirəm.

Onu yerdən götürüb sonuncu paltarını geyindirmək üçün aparanda mən yaxınlaşıb son dəfə əlimi onun üzünə vurdum... Onun sifəti buz kimi olmuşdu. Bu mənim ona son toxunuşum, son vidam oldu.

*Soyuqlu, şaxtalı bir qış axşamı,*
*Dönüşü olmayan bir yola çıxdın.*
*Nə qədər yalvardım, qışqırdımsa mən,*
*Məni eşitmədin, məni duymadın.*

*Son dəfə əlimi vuranda sənə,*
*Yanağın dağların buzuydu sənin.*
*O axşam son dəfə toxundum sənə,*
*Susdun, danışmadın, bir söz demədin.*

Səhəri gün biz onu evimizə yaxın bir qəbristanlıqda dəfn etdik. Onunla bərabər mənim də bütün arzularım o məzarda dəfn olundu.

O, Bakıya qayıdandan sonra cəmi bircə ay yaşadı.

*Bilsəydim ömrünə bircə ay qalıb,*
*Baş qoyub dizinə yatardım sənin.*
*Bir ana qoynunda yatan körpə tək,*
*Ölüb qucağında qalardım sənin.*

*Bilsəydim ömrünə bircə ay qalıb,*
*Yanından bir an da getməzdim sənin.*
*Diz çöküb Allaha yalvarıb hər gün,*
*Ömrümü səninlə yarı bölərdim.*

*Bilsəydim öləndə görəcəm səni,*
*Mən ölüb yanına gələrdim sənin.*
*İnan ki, bir anlıq səni görməyə,*
*Yüz canı bu yolda qurban edərdim.*

Mənim həyatım puç olmuşdu. Özümə yer tapa bilmirdim. Mən onsuz həyatı təsəvvür edə bilmirdim. Hara baxırdımsa onu görürdüm. Qonaq otağında qoyduğumuz şəkillərinin qarşısına qərənfillər düzmüşük. Mən hər dəfə o otağa girib onun şəkillərinə baxanda elə bilirəm ki, mənə "məni qoruya bilmədin” deyir.

Kəmalənin qırxı mart ayının 13-də çıxdı. Beləcə onsuz 40 günümüz arxada qaldı.

Mart ayının 16-da onun həyatda ən çox sevdiyi Ülkər qızının ad günü idi. Biz bir kiçik süfrə hazırladıq. Çox adam yox idi. Bizim süfrəmiz həmişə səsli-küylü olardı. Ancaq Kəmaləsiz hamı sakit oturmuş, heç nəyə əlini uzatmırdı. Hamı gözünü mənə dikmişdi ki, mən nəsə deyim. Mənimsə göz yaşlarım sakitcə yanağımdan aşağı süzülürdü. Mən Ülkərə bir medalyon hədiyyə etdim. Medalyonun bir qapağında Kəmaləmin şəkli, digərində isə Ülkərin öz şəkli vardı.

Mən Ülkərin boynunu qucaqlayıb medalyonu verdim. O xalası ilə birlikdə medalyonun qapağını qaldırıb bu şəkilləri görəndə heç kim gözyaşlarını saxlaya bilmədi. Kəmaləsiz birinci məclisimiz, bax, belə keçdi.

Hamı istəyirdi mən bir söz deyim.

*Dünən Ülkərimin doğum günüydü,*
*Yığışdıq bir yerə oturaq bir az.*
*Bir kiçik süfrə də açmışdı qızlar,*
*Yığışdıq, otura bilmədik sənsiz.*

*Hamı gözlərini dikmişdi mənə,*
*Hamı istəyirdi mən bir söz deyim.*
*Danışmaq istədim, əsdi dodağım,*
*Ona da heç gücüm çatmadı sənsiz.*

Onsuz yaşamaq mənim üçün çox çətindi. Bir an belə mən onu yaddan çıxara bilmirəm.

*Sənsiz yaşamağı, gəl, öyrət mənə,*
*İnan ki, yaşaya bilmirəm sənsiz.*
*Səni and verirəm Allah eşqinə,*
*Çox qoyma yaşayım mən burda sənsiz.*

*Sənsiz yaşamağı, gəl, öyrət mənə,*
*Bir ana körpəsin öyrədən kimi.*
*Ya özün qayıt gəl mənim dünyama,*
*Ya gəl öz yanına apar sən məni.*

*Sənsiz günlərimin artdıqca sayı,*
*Qıvrılır içimdə bir ilan mənim.*
*Hər dönüb keçmişə mən baxan zaman,*
*Həsrətin çəkirəm sənli günlərin.*

*Qəddim-qamətim də əyilib indi,*
*Bir beli bükülmüş qoca olmuşam.*
*Dizimdə taqətim qalmayıb daha,*
*Sənsiz gözü yaşlı bulud olmuşam.*

*Nəyimə gərəkdi indi bu dünya,*
*Dünya da başıma dar olub sənsiz.*
*Gözlərim hər yerdə axtarır səni,*
*Kor olub gözlərim, görməyir sənsiz.*

Bir atalar sözü var, deyir "dərdi çəkən bilər." Ona görə də heç kim bilə bilməz ki, mən Kəmaləsiz necə yaşayıram. Buna yaşamaq demək olarmı? Mən hər gecə başımı yastığa qoyanda Allaha yalvarırdım ki, o mənim yuxuma gəlsin. Ancaq hələ də onu yuxuda görə bilməmişəm.

*Başımı yastığa qoyanda hər gün,*
*Üz tutub Allaha yalvarıram mən.*
*Sən gəlib bu axşam mənim yuxuma,*
*Bir anlıq sən məni xoşbəxt edəsən.*

*Sən niyə yuxuma gəlmirsən mənim,*
*Axı darıxmışam, sənsiz qalmışam.*
*Sənsizlik, inan ki, bezdirib məni,*
*Sənsiz yaşamaqdan cana doymuşam.*

Sonra da fikirləşirəm ki, bəlkə də o gəlib məni kövrəldib, narahat etmək istəmir.

*Mən gələ bilmirəm sənin yuxuna,*
*Deyirəm qoy yaran sağalsın bir az.*
*Demə ki, ürəyim daşdandı mənim,*
*Mən də sənsizlikdən cana doymuşam.*

Allah onu tez apardı. Onun bütün arzuları o xəstə ürəyində qaldı. Sevincin toyunu görsə də, Kənan və Ülkərin toyunu görə bilmədi. Ülkərə cehiz üçün ürəyi istəyənləri ala bilmədi.

Ancaq, Kəmalə, uşaqlardan nigaran qalma! Allahın İzni ilə onların nəyi varsa hamsını yerbəyer edib sonra rahat sənin yanına gələcəm.

*Yaman tez apardın həyatdan məni,*
*Qoymadın dünyadan mən doyum, Allah.*
*Hər işim yollarda qaldı yarımçıq,*
*Bütün arzularım puç oldu, Allah.*

*Hər şeyim var idi mənim dünyada,*
*Varım-dövlətim də, malım-pulum da,*
*Gözəl övladlar da vermişdin mənə,*
*Qoymadın onlardan mən doyum, Allah.*

*Üz tutub getmişdim qərib ölkəyə,*
*Dərdimə bir əlac mən tapım orda.*
*Kəsib doğradılar mənim sinəmi,*
*Dərdimə bir əlac olmadı, Allah.*

*Yaman günahkaram onun yanında,*
*Söz verib sözümü tuta bilmədim.*
*Demişdim heç zaman atmaram səni,*
*Sözümü mən tuta bilmədim, Allah.*

Bir gün onun məzarını ziyarətə getmişdim. Qanım qara idi. Məzar daşının önündə dayanıb ürəyimdə onunla söhbət edirdim. Mən həmişə qanım qara olanda, dərdimi heç kimə deyə bilməyəndə onun yanına gedib dərdimi onunla bölüşürəm.

*Məzarım üstünə gələndə o gün,*
*Səni məyus gördüm, qanın qaraydı.*
*İstədim könlünü alım mən sənin,*
*Məni eşitmədin, məni duymadın.*

*Nə qədər yanında dayandımsa mən,*
*Dedim ki, bəlkə də məni görərsən.*
*Toxuna bilsəydim, əzizim, sənə,*
*Mən bir az könlünü alardım sənin.*

Yaman güvənirdi həyatda mənə. Ancaq mən onu qoruya bilmədim. Gücüm çatmadı...

*Yaman güvənirdin həyatda mənə,*
*Neyləyim, qoruya bilmədim səni.*
*Səni and verirəm Allah eşqinə,*
*O soyuq evinə gəl apar məni.*

Allah heç kimə ayrılıq qismət eləməsin. Ayrılıq ölümdən də betərdi.

*Allahım, göstərmə heç kimə pis gün,*
*Ayrılıq heç kimə qismət olmasın.*
*Yanmasın ürəyi həsrət odunda,*
*Kədərdən gözləri yaşla dolmasın.*

Kəmalədən sonra həyətdəki güllər də bir müddət açmadı. O gülləri çox sevirdi. Mən hər il həyətimizə təzə güllər gətirib əkirdim ki, o baxıb sevinsin. Ancaq Kəmalədən sonra mən bunu edə bilmirdim.

*Həyətdə bir gül də əkmədim bu il,*
*Nəyimə gərəkdi gül-çiçək mənim.*
*Sən yaman sevərdin gülü-çiçəyi,*
*Güllər sənin oldu, qəm-kədər mənim.*

*Bir gəlib görsəydin qızılgülləri,*
*Yaman saralıblar, yaman solublar.*
*Elə bil onlar da küsüb həyatdan,*
*Sənsiz boynu bükük yetim olublar.*

Sağlığında həmişə güllərin açan vaxtında o qohumları evə dəvət edərdi ki, "bir gəlin bizə, güllərim açıb."

*Hamını evinə dəvət edərdin,*
*Güllərim açılıb, bir bizə gəlin.*
*Düşüb qabağına hamının bir-bir,*
*Gülləri onlara sən göstərərdin.*



Bir dəfə biz Qəbələyə, iki günlük istirahətə getmişdik. İstirahət etdiyimiz yer dağların qoynunda gözəl bir yerdə idi. Biz ikimiz də səhər tezdən oyanmışdıq. Hava almaq üçün bir az çəmənlikdə gəzişdik. Mən dağ çiçəklərindən onun üçün bir buket düzəltdim. Kaş o günlər olaydı.

*Onun əlindəki o gül dəstəsin,*
*Bir dağın döşündən yığmışdım, Allah.*
*Toplayıb həvəslə həmin gülləri,*
*Gətirib mən ona vermişdim, Allah.*

İndi o günlərin hər şirin xatirəsi üçün yaman darıxıram, Kamış...

*Yaman darıxmışam, sənsizəm yaman,*
*Heç gəlib halımı sormursan mənim.*
*Yazığın gəlmir heç deyəsən mənə,*
*Gəlib göz yaşımı silmirsən mənim.*

Sənsiz yaşamağın da mənası yoxdu indi. Hər şey səni xatırladır. Bir an belə yadımdan çıxmırsan mənim.

*Mənası yoxdu heç indi heç nəyin,*
*Hər şeyi özünlə yığdın apardın.*
*Bizə saxladığın nə oldu sənin,*
*Sən qəmi-kədəri bizə saxladın.*

*Mənası yoxdu heç indi heç nəyin,*
*Hər şeyi sən bərbad edib getmisən.*
*Özünlə apardın yaxşı nə varsa,*
*Göz yaşın bizlərə qoyub getmisən.*

*Mənası yoxdu heç indi heç nəyin,*
*Sənsiz doğan günün, doğan ayın da.*
*Elə bil zülmətə qərq olub hər yan,*
*Sən məni zülmətə atıb getmisən.*

Mən darıxan kimi məzarlığa gedib onun şəklinin önündə dayanaraq onunla danışıb ürəyimi boşaldıram.

*Durub məzarının önündə indi,*
*Gözümü gözünə dikmişəm sənin.*
*Ruhunun hopduğu bu məzar daşı,*
*Dayanıb sakitcə qarşımda mənim.*

*Durub məzarının önündə indi,*
*Cansız şəklinlə danışıram mən.*
*Xəyallar aparır keçmişə məni,*
*O sənli günlərlə yaşayıram mən.*

*Sən gedən o gündən əlli gün keçib,*
*Bir gəlib qapımı döymürsən mənim.*
*Yaman tez çıxmışam sənin yadından,*
*Gəlib yuxuma da girmirsən mənim.*

*Yarpaq tək üstümdə əsərdin mənim,*
*Qoymazdın gözündən gedəm heç yana.*
*O xəstə canınla çəkib dərdimi,*
*Hər şeyi yığardın mənim yanıma.*

Aparıb onun məzarının yanına bir çinar əkdim, xan çinar. Axı xan çinarı çox yaşayır. Dedim bu çinar onun adına olsun. Onu yaşatsın. Böyüyüb onun məzarını qorusun.

*Bir çinar əkmişəm sənin adına,*
*Çinar yaşadıqca yaşatsın səni.*
*Qısa bir ömür yaşasan da sən,*
*Bu çinar qoy min il yaşatsın səni.*

*Sənin çinarının yanında o gün,*
*Bir başqa çinar da gətirdim əkdim.*
*Dedim tək qalmasın mənim tək o da,*
*Qoy bizim adımız qoşa çəkilsin.*

*O sənin adına əkdiyim çinar,*
*Nədənsə saralıb nədənsə solur.*
*Elə bil onun da bəxti yoxdu heç,*
*O da sənin kimi yox olub gedir.*

Dilimizdə bir söz var. “Kaş” sözü. Bu söz həmişə insana kədər, qəm gətirir. İnsanın əli hər şeydən üzüləndə, kiməsə və ya nəyəsə çatmayanda, kimsə yadına düşəndə, nələrsə əl çatmaz olanda bax bu söz yadına düşür.

*O qədər acığım gəlir bu sözdən,*
*“Kaş” sözü həyatda olmayaydı kaş.*
*Dünyanın ən böyük dərdi ayrılıq,*
*O kaşla bir yerdə boğulaydı kaş.*

*“Kaş” sözü insanın dilinə ancaq,*
*İnsan alışanda, yananda gəlir.*
*Əllərin heç nəyə çatmayanda sən,*
*“Kaş” sözün özünə imdad bilirsən.*

*Yaman zəhləm gedir o “kaş” sözündən,*
*O söz deyiləndə ürəklər yanır.*
*Nəyinsə həsrətin çox çəkəndə sən,*
*Onu yada salıb sən “kaş” deyirsən.*

*Kaş onun əlindən bircə dəfə mən,*
*Tutub muradıma çataydım, Allah.*
*Üz-üzə oturub, doyunca baxıb,*
*Həsrəti qəlbimdən ataydım, Allah.*

Sənsiz birinci dəfə idi ki, bayram gəlmişdi. Novruz bayramı. Hər yerdə tonqallar yanırdı. Hamı çərşənbə tonqalı qalamışdı. Mənim də içimdə qalanmamış bir tonqal yanırdı. O tonqalın istisi ancaq məni yandırırdı.

*Tonqallar ucalıb hər yerdə bu gün,*
*Hər yerdə çərşənbə tonqalı yanır.*
*Mənim ürəyimdə yanan tonqalın,*
*İstisi tək mənim qəlbimdə qalır.*

Deyirdim mən sənsiz yaşaya bilmərəm. Yox, Kamış, heç də elə deyilmiş. Allah hərəyə bir ömür verib. O ömrü də gərək sonuna qədər yaşayasan. Tək fərq odur ki, sənsiz yaşamaq mənim üçün elə ölmək kimi bir şeydi. Mən o günü səbrsizliklə gözləyirəm ki gəlib sənə qovuşam, Kamış.

*Deyirdim yaşaya bilmərəm sənsiz,*
*Nə oldu, hələ də yaşayıram mən.*
*Sən mənim nəfəsim, havam, suyumsan,*
*Havasız, susuz da yaşayıram mən.*

*Deyirdim yaşaya bilmərəm sənsiz,*
*Demək sözlərim də, yalanmış mənim.*
*Ölənlə ölmürmüş ölərəm deyən*
*Ölmədim indidə yaşayıram mən.*

*Sənsiz keçən ömür ömür deyilmiş,*
*Neyləyim, ömrümü belə yazıblar.*
*Bir qismi səninlə xoşbəxt günlərə,*
*Bir az da kədərə, qəmə yazıblar.*

*Deyirdim yaşaya bilmərəm sənsiz,*
*Sən mənim damarda axan qanımsan.*
*Vuran ürəyimsən, görən gözümsən,*
*Ürəksiz, gözsüz də yaşayıram mən.*

Mən səndən sonra özümü bu dünyada qonaq sayıram, Kamış... Özümü yiyəsiz hiss edirəm. Hər hansı bir məclisə gedəndə, məclisdən sonra hamı bir kənara çəkilib öz həyat yoldaşını gözləyəndə mənim içimdən qara qanlar axır. Düşünürəm ki, kaş ölməyəydi, o da bu məclisdə olaydı. Mən də onu götürüb evə aparaydım. Ancaq bu heç vaxt mənə qismət olmayacaq. Çünki sən yoxsan, Kamış...

*Elə bil dünyada qonağam indi,*
*Köç edib evimə getməliyəm mən.*
*Kimsəsiz adada qalan adam tək,*
*Gözlərim bir gəmi axtarır mənim.*

*Nə vaxtdır həsrətlə gözləyənim var,*
*Köç edib yanına getməliyəm mən.*
*Axı Kəmaləmin gözü yoldadı,*
*Köç edib yanına getməliyəm mən.*

*Oğul-uşağım da incimәsin heç,*
*Mәnim dә öz evim, öz ocağım var.*
*Gözlәyir Kәmalәm, gözlәyir mәni,*
*Köç edib yanına getmәliyәm mәn.*

*Mәn onu heç vaxtı tәk qoymamışdım,*
*Nazını çәkәrdim hәr zaman onun.*
*Nә vaxtdır Kәmalәm tәk qalıb mәnim,*
*Köç edib yanına getmәliyәm mәn.*

Bir an belә yadımdan çıxmırsan mәnim. Mәn indi keçmişin şirin xatirәlәri ilә yaşayıram. Sәnli günlәrimin şirin xatirәlәri bir an belә gözümün qabağından getmir.

*Bir "zaman maşınım" olsaydı mәnim,*
*Zamanı durdurub geri sürәrdim.*
*Qayıdıb gedәrdim sәnli günlәrә,*
*Bir anlıq özümü xoşbәxt edәrdim.*

*Bir zaman maşınım olsaydı mәnim,*
*Çәkib uzadardım sәnli günlәri.*
*Sәnlә yaşadığım o bircә günә,*
*Mәn qalan ömrümü qurban edәrdim.*

*Zamanı durdura bilsәydim әgәr,*
*Qayıdıb keçmişә qonaq gedәrdim.*
*Dönüb gәncliyimin subay çağına,*
*Yenidәn başlayıb sәni sevәrdim.*

Bu yay mən heç yana gedə bilmədim. Sənsiz nə istirahət... Mən hara baxıramsa, hara gedirəmsə orda sənli günlərimin xatirəsi görünür.

Bir gün qardaşım Arif mənə dedi ki, "gəl, Qubaya gedək. Orda bir yer var, ora baxıb gələk." Biz səhər yola çıxdıq. Bu yolu Kəmaləsiz ilk dəfə idi ki, gedirdim. Mən hara baxırdım, nəyi görürdümsə Kəmaləli günlər gözümün önünə gəlirdi.

*İlk dəfə bu yola sənsiz çıxmışam,*
*Qüssədən gözlərim yaşarıb mənim.*
*Yol boyu gözlərim nəyi gördüsə,*
*Keçdi göz önümdən sənli günlərim.*

*Uzaqdan göründü Beş Barmaq dağı,*
*Qopardı yaramda olan qaysağı.*
*Keçmişə qaytardı bir anlıq məni,*
*Keçdi göz önümdən sənli günlərim.*

*Nə qədər vüqarlı olsa da bu dağ,*
*O dağ da dağ çəkdi sinəmə mənim.*
*Bir anlıq gözümün önünə gəldi,*
*Səninlə bu yolu gedən günlərim.*

*Biz pirə çatanda enib maşından,*
*Ziyarət eylədik, nəzir də qoyduq.*
*Çox gəzdi, axtardı gözlərim səni,*
*Orda da mən səni görə bilmədim.*

*Gözümü dikmişdim qocaman pirə,*
*Mən orda gəzirdim mən səni orda.*
*Qayası göyləri deşən o yerdə,*
*Müqəddəs ocaqda gəzirdim səni.*

*Təngəyə getmişdik, soyuq bulağa,*
*Yaman xoşlanırdın həmin o yerdən.*
*Orda da axtardım bütün hər yeri,*
*Mən tapa bilmədim, tapmadım səni.*

Mən səninlə istirahətə getdiyim o yerlərə indi gedə bilmirəm. Gözümə görünən nə varsa hamısı ilan kimi qəlbimi çalır. Bu dəfə Qubaya gedəndə mən gedib kənddəki evimizin qapısını aça bilmədim. Sənsiz o ev də, o meşələr də, o dağlar da mənim üçün məzar kimi görünür. Elə bilirəm ki, mən harasa getsəm sənin məzarın Bakıda yiyəsiz qalacaq.

*Səninlə getdiyim, gəzdiyim yerlər,*
*Odsuz alov olub, yandırır məni.*
*İndi o yerlərə gedə bilmirəm,*
*Gözlərim hər yerdə axtarır səni.*

*Mən gedə bilmirəm indi heç yana,*
*Ləzzəti qalmayıb indi heç nəyin.*
*Ağaclar gül açmır, çəmənlər çiçək,*
*Yasını tuturlar elə bil sənin.*

*Sən indi çöllərə salmısan məni,*
*Evdən eşikdən də bezar olmuşam.*
*Dərdimi bilmirəm mən deyim kimə,*
*Dəliyə dönmüşəm, dəli olmuşam.*

Bizim həyətimizdə bir qız heykəli var. O bir az Kəmaləyə oxşadığı üçün mən o heykəli almışdım. Bir gün səhər tezdən duranda gördüm ki, külək onu aşırıb. Heykəl düz sinəsindən iki yerə bölünüb. Mən heykəlin bölünmüş parçalarını yığıb yerinə qoydum. Mən indi hər dəfə o heykəli görəndə onun sinəsindəki o kəsiyə baxanda Kəmaləmi xatırlayıram. Elə bilirəm ki, o da mənim Kəmaləm kimi qəlbindən yaralıdı.

*Nə qədər mən sənə baxıb ağlayım?*
*Dinib danışmırsan, susub baxırsan.*
*Oxşar həyatınız varıymış sizin,*
*Nisgilli qəlbimə yara vurursan.*

*Ürəyin sənin də param-parçadı,*
*Sənin də sinənə çəkilib dağlar.*
*Onun tək sənin də doğranıb sinən,*
*Sənin də sinəndə bıçaq yeri var.*

*Nə qədər yaralı olsa ürəyin,*
*Sən bizi tərk edib çıxıb getmədin.*
*Tək qoydun, Kəmalə, dünyada məni,*
*Unuda bilmirəm heç zaman səni.*

Avqust ayının 13-də sən mənim yuxuma girdin. İlk dəfə idi ki, sən mənim yuxuma gəlirdin. Ancaq mən hər dəfə yastığa başımı qoyanda Allaha yalvarıram ki, yuxuma gələsən. Heç olmasa yuxumda səni görüm. Yuxu da həyatınbir parçasıdı. Ancaq sən bunu da mənə çox görürsən. Kəmalə, heç olmasa yuxularıma gəl. Mən nəyisə düz etməyəndə mənə doğru yolu göstər. Həmişəki kimi, sağlığında olduğu kimi mənə məsləhətlər ver. İndi sənə daha çox ehtiyacım var.

*Sən dünən yuxuma gəlmişdin mənim,*
*Bilsəydin nə qədər xoşbəxt idim mən.*
*Elə bil Allahım vermişdi aman,*
*Bir anlıq səninlə mən xoşbəxt olam.*

*Sakitcə qoluma girmişdin mənim,*
*Harasa gedirdik, bilmədim hara.*
*Dayandı o birdən, ayaq saxladı,*
*Lahıca getmə sən, getmə sən dedi.*

*Ona kömək edib tutdum əlindən,*
*Yavaşca endirdim qarlı pillədən.*
*Duyurdum əlinin hərarətini,*
*Əllərim əsirdi mənim sevincdən.*

*Oyandım yuxudan, yanımda yoxsan,*
*Dolandı başıma bütün ev mənim.*
*Yenə həmin otaq, həmin şəkillər,*
*Mənə həmdəm oldu göz yaşım mənim.*

Mən onu yuxuda görməsəydim İlyasın (nəvəmin) ad günü yadıma düşməzdi. Sağlığında hər şeyi yadıma saldığı kimi onu da mənim yadıma salmışdı.

Mən ayın 17-i Lahıca getsəydim... Nə isə...

Avqust ayının 18-i nəvəmin ad günü idi. Ancaq sən nənəsi onun yanında olmadın. Amma onun " C " nənəsi sənin əvəzinə nə lazımdırsa hamısını eləmişdi. Bir xeyli qohum-əqrəba gəlmişdi. Biz həyətdə bir süfrə açdıq. Stolun üstündə hər şey var idi. Bu məclisimizdə, həyətimizdə, evimizdə bircə sən yox idin, Kamış. Sənin yoxluğun hamını məyus etmişdi. Məni isə içimdə ağladırdı...

*Dünən Mikuşumun doğum günü idi,*
*Kaş süfrə başında olaydın sən də.*
*Sənin qulluğunda duraydım özüm,*
*Bizimlə danışıb güləydin sən də.*

*Axı Mikuşumu çox istəyirdin,*
*Bəs niyə yanında olmadın onun?*
*Verib hədiyyəsini, üzündən öpüb,*
*Qoymadın doyunca "ay nənə" desin.*

Bir səhər mən onun ziyarətinə getmişdim. Məzar daşına baxanda onun gözündə bir gilə yaş gördüm. Elə bil o həqiqətən ağlamışdı. Göz yaşı onun kirpiyində dayanmışdı. Mən ona qoşulub bir xeyli ağladım.


18.06.2013

*Bu səhər gələndə məzarın üstə,*
*Bir gilə yaş gördüm gözlərində mən.*
*Görəndə gözündən süzülən yaşı,*
*İnan ki, doğrandı sinəmin başı.*

*Niyə ağlamışdın, bilmədim niyə,*
*Bəlkə də qorxmuşdun nədənsə gecə.*
*İmkanım əlimdə olsaydı mənim,*
*Mən gəlib yanında yatardım sənin.*

*Kaş ruhun olmağı gerçək olaydı,*
*Ruh olub yanında yataydım sənin.*
*Bütün kainatı gəzib dolanıb,*
*Mən gəlib yanına çataydım sənin.*

*Hər səhər,hər axşam,hər vaxt, hər zaman,*
*Sənin xəyalınla yaşayıram mən.*
*Bir an da yadımdan çıxmırsan mənim,*
*Şirin röyalarla yaşayıram mən.*

*Yerini bilsəydim hardasan indi,*
*Yanına ayaqla gələrdim sənin.*
*Yorulmaq bilməzdim bu yolda heç vaxt,*
*Gəlib gözlərini bir də görərdim.*

*İlahi, nə böyük dərddir ayrılıq,*
*Heç kimə ayrılıq yazmasın Allah.*
*Ayrılıq dağa da dağlar çəkərmiş,*
*Dağ çəkdi sinəmə mənim ayrılıq.*

Fevralın 2-də, mənim Kəmaləmin son günündə ondan mənə bir mesaj gəlmişdi. Bu Kəmaləmin mənə etdiyi son zəng idi. Mən çalışırdım ki, o mesajı qoruyub saxlayım. Mən onunla təsəlli tapırdım. Hər gün dəfələrlə telefonumu yoxlayır, gələn başqa zəngləri silirdim ki, telefonumda yalnızca onun zəngi qalsın. Ancaq mən Kəmaləmi qoruya bilmədiyim kimi o mesajı da qoruyub saxlaya bilmədim. Bir gün telefonum xarab oldu, o mesaj da yox oldu getdi.

*Bir mesaj yadigar qalmışdı səndən,*
*Saxlaya bilmədim, silindi, getdi.*
*Əsirdim üstündə hər axşam, səhər,*
*Qoruya bilmədim, yox oldu, getdi.*

*O zəngdən ətrini alırdım sənin,*
*Son dəfə gəlmişdi mənə o zəngin.*
*O sənin son zəngin, son günün oldu,*
*O da sənin kimi yox oldu, getdi.*

*Demək aciz qalır çox şeydə insan,*
*Həll edir hər şeyi böyük Yaradan.*
*Mənim də Kəmaləm vardı bir zaman,*
*Qoruya bilmədim, yox oldu, getdi.*

*Bir mesaj nə idi, qismət olmadı,*
*Demək qismətimdə yox imiş mənim.*
*Səndən mənə qaldı cansız şəkillər,*
*Baxdıqca göz yaşım sel oldu, getdi.*

Kəmalə, mən bundan sonra nə qədər ömür yaşasam Allaha dua edib yalvaracam ki, sənin bu dünyada çəkdiyin zülmlərin əvəzini o dünyada sənə versin. Yerini cənnət, ruhunu şad etsin. Bütün ömrüm boyu sənin yasını tutub, sənin yanına gələcəyim günü gözləyəcəm...

*Nə qədər həyatda ömür yaşasam,*
*Mən sənin yasını tutacam hər gün.*
*Gəlib məzarına gül qoyub sənin,*
*Gözümdən qanlı yaş tökəcəm hər gün.*

*Həyatda nə qədər ömür yaşasam,*
*Qoymaram heç zaman çıxasan yaddan.*
*Mən ayı, həftəni, günü bilmərəm,*
*Gələcəm yanına, gələcəm hər gün.*

*Nə qədər ömrüm var yaşayıram mən,*
*Adını mən uca tutacam sənin.*
*Hər axşam adına dualar deyib,*
*Səhəri səninlə açacam hər gün.*

*Nə qədər ömrüm var yaşayıram mən,*
*Qoymaram qəbrini ot basa sənin.*
*Gəlib suyun verib, gülün oxşayıb,*
*Baş daşın mən özüm siləcəm hər gün.*

Bir dəfə şəhərdə gedirdim. Birdən dayanacaqda gözləyən bir qadın gördüm. O, Kəmaləyə çox oxşayırdı. Mən maşını yolun kənarında saxladım. Ona baxırdım. İlahi, birinsan insana nə qədər oxşayarmış. Maşından düşüb dayanacağa yaxınlaşdım. O qadının əynindəki paltarı, duruşu, baxışı eyni ilə mənim Kəmaləmə oxşayırdı. Qəhər məni boğmuşdu. Əgər ətrafda insanlar olmasaydı, mən onu bağrıma basıb "niyə burda dayanmısan" deyib qışqırardım, Bir az kənardan ona baxdım. Birdən bir avtobus dayandı. Gedib avtobusa mindi. O da hiss etmişdi ki, mən ona baxıram. Avtobus tərpəndi və o, başını qaldırıb mənə baxdı. Bunların hamısını, o bir anlıq sevincimi bu avtobus götürüb apardı.

*Bir qadın gördüm mən dünən şəhərdə,*
*Mənim Kəmaləmə oxşayırdı o.*

*Qaşları, gözləri, qara saçları,*
*Əyninə geydiyi sadə paltarı,*
*Yerişi, duruşu, sərt baxışları,*
*Mənim Kəmaləmə oxşayırdı o.*

*Mən donub qalmışdım, baxırdım ona,*
*Nə qədər oxşayar insan insana.*
*Saxladım maşını bir kənarda mən,*
*Düşüb maşınımdan yanına gəldim.*

*Durmuşdum yanında, baxırdım ona,*
*Qaldırıb başını o mənə baxdı.*
*Gözlər həmin gözlər, baxışlar eyni,*
*Mənim Kəmaləmə oxşayırdı o.*

*İstədim bağrıma basım mən onu,*
*Qışqırıb, bağırıb, "Kəmaləm" deyim.*
*Yox dedim, o mənim Kəmaləm deyil,*
*Mənim Kəmaləmə oxşayırdı o.*

*Boyu-buxunu da eyni biçimdə,*
*Mən donub qalmışdım heyrət içində.*
*Sevincim boğulub qaldı içimdə,*
*Mənim Kəmaləmə oxşayırdı o.*

*Bir qədər kənardan seyr etdim onu,*
*Bu qısa sevincin tez çatdı sonu.*
*İlahi, bir daha görsəydim onu,*
*Mənim Kəmaləmə oxşayırdı o.*

Bax belə, Kəmalə, sən gedən gündən hər şey, hər kəs səni xatırladır. Özüm özümü aldadır, hər yerdə səni görür, xatirələrinlə yaşayıram.

*Beləcə günləri mən yola saldım,*
*Qarlar da əridi, qış sona çatdı.*
*Ağaclar gül açdı, çəmənlər çiçək,*
*Qışım, baharım da olmadı sənsiz.*

*Qarlı qış yerini bahara verdi,*
*Meşələr yam-yaşıl donunu geydi.*
*Quşlar cəh-cəh vurub nəğməsin dedi,*
*Heç nəyin mənası olmadı sənsiz.*

*Elə bil kimsəsiz qalmışdı hər yan,*
*Bahar da könülsüz gəlmişdi bu il.*
*O küncdə əkdiyin qanlı bənövşə,*
*Boynunu bükmüşdü, qalmışdı sənsiz.*

*Bahar da qurtardı, istilər düşdü,*
*Qovruldu hər tərəf, yandı istidən.*
*Soldu bənövşələr, saraldı güllər,*
*Dağlar da kədərə büründü sənsiz.*

*Artıq payız gəlir, ağaclar solur,*
*Meşələr qızıl don geyinir indi.*
*Yarpaqlar tökülüb yerlə bir olur,*
*Günəş buludlarda gizlənir sənsiz.*

*Göy üzün çətir tək alır buludlar,*
*Uşaq tək oynaşıb səs də salırlar.*
*Hərdən də ağlayıb, göz yaşı töküb,*
*Bir körpə uşağa dönülər sənsiz.*

*İndi mən özüm də bulud olmuşam,*
*Bir sakit külək də ağladır məni.*
*Yaman kövrəlmişəm, kövrək olmuşam,*
*Bulud tək gözlərim ağlayır sənsiz.*

*Yaman üşüyürəm, soyuqdu mənə,*
*Bədənim soyuqdan titrəyir mənim.*
*Qarlı qış elə bil alıb hər yanı,*
*Evim-eşiyim də bumbuzdu sənsiz.*

*Göy üzün bürüyüb indi buludlar,*
*Nə ulduz görünür, nə də ki, ay var.*
*Gecələr zülmətdi, gündüzlər tutqun,*
*Elə bil yer, göy də ağlayır sənsiz.*

*Bir köklü çinardım sənin yanında,*
*İndi saralmışam, solmuşam sənsiz.*
*Çürüyür budağım, düşür yarpağım,*
*Bir çürük ağaca dönmüşəm sənsiz.*

*Bir sönmüş bulağam, quruyub suyum,*
*Bir susuz çalaya dönmüşəm sənsiz.*
*Gəl, su tök, çağlayım, yenidən axım,*
*Qoyma günəş altda qovrulum sənsiz.*

*Yaman öyrətmişdin özünə məni,*
*Mən dözə bilmirdim bir gün də sənsiz.*
*Bir ildən artıqdır sən indi yoxsan,*
*Gəl, gör, nə haldayam mən indi sənsiz.*

*Küsürəm hər şeydən, küsüb hamıdan,*
*Küsəyən uşağa dönmüşəm sənsiz.*
*Hərdən də küsürəm özüm özümdən,*
*Belə yaşamaqdan bezmişəm sənsiz.*

*Küsürəm günəşdən, küsürəm aydan,*
*Kaş onlar bir daha çıxmaya sənsiz.*
*Zülmətə qərq ola bütün kainat,*
*Gözlərim heçnəyi görməyə sənsiz.*

***

*Ürəyim doludur, yaman dolmuşam,*
*Bulud tək ağlayıb boşalım gərək.*
*Bir güclü yağış tək göylərdən yağıb,*
*Sənin məzarını mən yuyam gərək.*

*Artıq qocalmaq da istəmirəm mən,*
*Nəyimə gərəkdi sənsiz qocalmaq.*
*Sənsiz yaşamaq da istəmirəm mən,*
*Gözləyə bilmirəm qocalıb öləm.*

*Daha qocalmağın mənası yoxdur,*
*Nəyimə gərəkdi belə qocalıq.*
*Bəsdir, yaşadığım bəs edər mənə,*
*Belə yaşamaq da istəmirəm mən.*

***

*Yaman qocalmışam, bükülmüşəm mən,*
*Bir sönmüş ocağam, yanmaram daha.*
*Mən səndən alırdım yaşamaq eşqin,*
*Sənsiz sönmüş küləm, yanmaram daha*

*Bir şam da yananda əriyib gedir,*
*Tökülüb dibinə muma çevrilir.*
*Mənim də ürəyim şam kimi yanır,*
*Bir dəfə yanan şam yanmır bir daha.*

*Yaman qocalmışam, bükülüb belim,*
*Dizimdə taqətim qalmayıb daha.*
*Nə qədər ağlayım mən axşam-səhər,*
*Gözümdə göz yaşım qalmayıb daha.*

***

*Öləndə qəbrimi siz yaxın qazın,*
*Lap onun yanına qoyun siz məni.*
*Həsrətin çox çəkib həsrət qalmışam,*
*Qoyun məzarımız bir olsun bizim.*

***

*Bir səhər gözümü açıb yuxudan,*
*Mən onu yanımda görəydim, Allah.*
*Bunların hamısı yuxuya dönüb,*
*Yadımdan silinib gedəydi, Allah.*

***

*Heç kim bu dünyada əbədi deyil,*
*Yaranan öləcək nə vaxtsa bir gün.*
*Çatacaq mənim də ömrümün sonu,*
*Mən ölüb yanına gələcəm bir gün.*

*Əzəldən beləymiş işi dünyanın,*
*Əcəli əlində deyil heç kimin.*
*Hər kəsə bir ömür yazıb, Allahım,*
*Əcəli çatanda gələcək bir gün.*

***

*Fələk aldı səni mənim əlimdən,*
*Saxlaya bilmədim, gücüm çatmadı.*
*Şahları taxtından qoparıb alan,*
*O güclü fələyə gücüm çatmadı.*

***

*Mən sənə ömrüm-günüm deyərdim,*
*Ömrümü, günümü heç edib getdin.*
*Bəlkə yaşayardım yanında yüz il,*
*Sənsiz yaşamaq da bir ömür deyil.*

*İndi oturmuşam həyətdə, təkəm,*
*Demək belə imiş qismətim mənim.*
*Tənhalıq yazılıb alnıma mənim,*
*Beləcə keçəcək sənsiz günlərim.*

Hər səhər durub işə gedəndə bir göyərçin uçub bizim eyvanın məhəccərinə qonur. Məndən qorxmur. Mən ona baxan kimi o yerində fırlana-fırlana özünə məxsus səs çıxarır. Elə bil o mənimlə danışır. Mənə elə gəlir ki, o mənim Kəmaləmin ruhudu. Sağlığında hər səhər məni yola saldığı kimi indi də onun ruhu məni yola salır...

*Hər səhər mən durub işə gedəndə,*
*Eyvana bir tənha göyərçin gəlir.*
*Dayanır eyvanın məhəccərində,*
*Danışır mənimlə o öz dilində.*

*O quşun dilini bilməsəm də mən,*
*Bilirəm, ruhundu qapıma gələn.*
*Hər səhər sən məni yola salardın,*
*Narahat kölgəndi gözə görünən.*

***

*Mən hansı ulduzda axtarım səni,*
*Nə qədər ulduz var, sonsuzdu göylər.*
*Allahım aparıb səni göylərə,*
*Mən gəlib göylərdə tapacam səni.*

*Göyərçin olsaydım uçub göylərə,*
*Mən səni göylərdə gəlib tapardım.*
*Alardım qollarım, qanadım üstə,*
*Yol tapıb geriyə, evə uçardım.*

***

*Gündüzlər yatsa da soyuq məzarda,*
*Gecələr qoy mənim yuxuma gəlsin.*
*Üzünü gündüzlər görməsəm də mən,*
*Gecələr yuxumda mən görüm, Allah.*

*Gecələr ay doğub dolanır yeri,*
*Səhərlər yox olub, çəkilib gedir.*
*Gündüzlər ay kimi çıxıb getsə də,*
*Gecələr yuxuma qoy gəlsin, Allah.*

***

*Demək vəfasızmış sənin ürəyin,*
*O sənə vəfalı bir dost olmadı.*
*Qoymadı ömrünü vurasan başa,*
*Ömrünü yarıda sənin saxladı.*

*Yaman vəfasızmış sənin ürəyin,*
*Nə qədər zülmlər göstərib sənə.*
*Doğrayıb sinəni, yaralar vurub,*
*Dərd qoyub mənim də dərdim üstünə.*

***

*Sən necə qalırsan çöldə, soyuqda,*
*Yaman üşüyərdin soyuq düşməmiş.*
*Gətirim üstünə evmi tikim mən,*
*Şaxtalı, soyuqlu günlər gəlməmiş.*

*Bilmirəm mən səni necə qoruyum,*
*Küləkdən, soyuqdan, yağışdan, qardan.*
*Gətirim üstünə yorğanmı örtüm,*
*Qarlı qış ağ donun yerə sərməmiş.*

*Təklikdə darıxıb dilxor olanda,*
*Qəm-qüssə qəlbimə hakim olanda,*
*Sənsiz darıxanda, sənsiz qalanda,*
*Sən niyə yuxuma gəlmirsən mənim.*
*Gəlib göz yaşımı silmirsən mənim.*

*Kədər başım üstdə atın çapanda,*
*Həsrət boğub məni əldən salanda,*
*Göz yaşım yağış tək yerə hopanda,*
*Sən niyə yuxuma gəlmirsən mənim.*
*Gəlib göz yaşımı silmirsən mənim.*

Bu gün aşuradır. Qətil sınan gün insanlar məscidlərə gedib ibadət edirlər. Mən heç yana gedə bilmədim. Sənin məzarın üstə gəldim. Göz yaşları ilə ibadətimi burda etdim. Bir xeyli şəklinin önündə dayanıb səninlə söhbət etdim. Xəyallar məni keçmişə apardı.

Bir dəfə uşaqlar balaca olanda mən onları götürüb Göy məscidə aparmışdım. Bir kənarda dayanmışdım. Uşaqlar mənə qısılmışdı. Mən uşaqlarımla birlikdə Allaha dua edib sənə ömür diləyirdik. Mən üzümü göyə tutub: "Allahım, heç olmasa uşaqlar böyüyənə kimi mənim Kəmaləmə ömür ver." -demişdim. Bəlkə də o gün səhv etmişdim. İndi həmin o gün yadıma düşəndə fikirləşirəm ki, Allahım həmin o gün mənim dualarımı eşitmişdi. Dualarım qəbul olunmuşdu. Gərək mən sənin ömrünü bir az da artıq istəsəydim.

*Mənim aşuram da, dinim də sənsən,*
*Müqəddəs ocağım, pirim də sənsən.*
*Əgər bir gün durub yanıma gəlsən,*
*Sən o gün dünyanı mənə verərsən.*

*Məni bağışlasın Allahım, Tanrım,*
*Sən mənim hər şeyim, dövlətim-varım.*
*Qibləm,səcdəgahim, inanc otağım*
*Ziyarət etdiyim pirim də sənsən.*

*Bu gün aşuradır,tokülüb qanlar*
*Doğranıb sinələr,alınıb canlar.*
*Mənim də ömrümün bir şəhidi var*
*Müqəddəs bildiyim şəhidim sənsən.*

*Heç vaxt demə ki, şəhid deyiləm*
*Şəhidsən, sənin də doğranıb sinən.*
*Imamlar səhrada şəhid olublar*
*Mənim evimin də şəhidi sənsən.*

*Bu gün doqquz aydır həyatda yoxsan,*
*Bu aylar doqquz il qocaldıb məni.*
*Bir anım olmayıb bu doqquz ayda,*
*Mən yaddan çıxaram bircə an səni.*

*Yaman çətin imiş sənsiz yaşamaq,*
*Bir ayı bir ildən uzun olurmuş.*
*Çətinmiş daşımaq ayrılıq yükün,*
*Ayrılıq ölümdən betər olurmuş.*

***

*Ölüm bir kabusdu, o gizli gəlir,*
*Hələ də əlindən qaçan olmayıb.*
*Hərənin bir yerdə kəsir qabağın,*
*Qocaya, cavana məhəl qoymayıb.*

*Ölmək asan şeydir,ayrılıq çətin*
*Ölməyə nə var ki, ölüb gedirsən.*
*Həyatda tək qalıb, sən tək yaşasan*
*Kədərlə bir yerdə ömür sürürsən.*

*Ölmək asan şeydir, yaşamaq çətin*
*Tez getdin, çəkmədin ayrılıq dərdin*
*Bir az yaşasaydın mənsiz dünyada*
*Ayrılıq bax nədir,onda bilərdin.*

*Tez getdin, qoymadın mən doyam səndən*
*Qaldı ürəyimdə arzular mənim.*
*Söndürdün evimin yanan çırağın*
*Qırıldı qollarım,qadanım mənim.*

*Nə qədər övlad, uşaq olsa da*
*Sən məni tək qoydun fani dünyada.*
*Nəvəm "baba" deyib, könül alsa da*
*Mən sənsiz qalmışam bu gen dünyada.*

# QAYIT GƏL

Qayıt, gəl, əzizim, halıma bir bax,
Gör ki, nə haldayam, nə gündəyəm mən.
Bax, onda yazığın gələcək mənə,
Bəlkə qayıdarsan sən onda yenə.

O sənə verdiyim sevgini qaytar,
Qaytar ki, bir daha sevməyim səni.
Gəl, qaytar eşqimi, sönsün ürəyim,
Qaytar ki, dərdini çəkməyim sənin.

Qayıt, gəl, əzizim, sən məni qurtar,
Qoyma bu dünyada mən əzab çəkim.
Çıxar ürəyimi özünlə apar,
Bəlkə sakitləşər ürəyim mənim.

Qayıt, gəl, əzizim, mənim yanıma,
Unutdur bu qəmi, kədəri mənə.
Sil, at içimdəki olan dərdləri,
Biz xoşbəxt yaşayaq səninlə yenə.

Qayıt, gəl, ay gülüm, evinə qayıt,
Gəl, yandır o sönmüş işığı yenə.
Qoyma ocağımız, odumuz sönsün,
Biz xoşbəxt yaşayaq səninlə yenə.

Qayıt, gəl, uşaqlar yetim qalmasın,
Yetimlik dünyada çox ağır dərddi.
Sevindir onları, sevinc ver bizə,
Unudaq bu dərdli, qəmli günləri.

Gəl, qaytar sən mənə, özünü qaytar,
Süzgün baxışları, gözünü qaytar.
Bir kəlmə sözünə ehtiyacım var,
Şirin söhbətini, sözünü qaytar.

# YUXUNA GƏLMİŞƏM

Gəlmişəm yuxuna bir şeir deyəm,
Sən öz dəftərinə yazarsan onu.
Köçmüşəm həyatdan indi yoxam mən,
Həmişəlik yadında saxla sən bunu.

Bilirəm, sevirdin canından artıq,
Ölməyə hazırdın mənim yerimə.
Bircə gün mən artıq yaşayım deyə,
Sən bütün ömrünü mənə verərdin.

Mən indi ölmüşəm, həyatda yoxam,
Uşaqlar anadan qalıblar yetim.
Onları atasız qoyma heç zaman,
Özünə fikir ver, bir düşün dərin.

Bunu yadda saxla, çıxarma yaddan,
Bir gün geri dönür yaranan insan.
Həyatda nə qədər ömür yaşasan,
Onu sənə verir böyük Yaradan.

Mənim sözlərimi çıxarma yaddan,
Özün muğayət ol oğul-uşaqdan.
Toyların edərsən, nəvə görərsən,
Üz tutub yanıma sonra gələrsən.

Dünən sənin ad günün idi. Sənsiz, sənin ad günün... Keçən il sənin ad günündə mən sənə sürpriz etmişdim. Bu il isə sən mənə öz ölümünlə sürpriz etdin. Əgər mən ölüb sən qalsaydın, sən o zaman bilərdin sevdiyin bir adamı itirib onsuz ona ad günü keçirmək insana nə qədər əzab verir. Nə isə, bunu da sən mənə yaşatdın.

Çoxlu qonaqların gəlmişdi, Kəmalə. Ancaq bu ad gününün keçən ilki ad günündən fərqi o idi ki, bu il güllər sənə yox, sənin məzarının üstünə düzüldü. Heç kimin üzündə təbəssüm yox idi. Hamı göz yaşı tökür, keçmiş günlərin şirin xatirələrindən danışıb səni yada salırdılar. Mən isə həmin gün yuxuya gedənə qədər göz yaşlarımı saxlaya bilmədim. Səni düşündüm. Fikirləşdim ki, yəqin bu axşam sən mənim yuxuma gələrsən. Ancaq sən yenə də mənim yuxuma gəlmədin...

*Bu gün ad gündü, Kəmaləm, sənin,*
*Dur gəl, qonağını qarşıla özün.*
*Süfrə aç, oturub biz deyək, gülək,*
*Unudaq keçmişin qəmli günlərin.*

*Bu gün ad günündü, yığışıb hamı,*
*Bəs özün hardasan, evində yoxsan.*
*Üzlərdə gülüş yox, susub dodaqlar,*
*Sənin ad günündü, sən özün yoxsan.*

*Bu gün ad günündü, əzizim, sənin,*
*Mən sənə nə alım, nələr gətirim.*
*Qərənfil istəmə, gəl, bu gün məndən,*
*On aydır qərənfil düşmür əlimdən.*

*Mənim Kəmaləmin doğum günüdü,*
*Siz qoyun doyunca ağlayım bu gün.*
*Nə vaxtdı göz yaşım qəlbimə axır,*
*Hönkürüb ucadan ağlayım bu gün.*

*Mənim Kəmaləmin doğum günüdü.*
*Xətrimə dəyməyin siz mənim bu gün.*
*Dərdimi heç kimə deyə bilmirəm,*
*Mənə Kəmaləmi gətirin bu gün.*

*Siz Allah qınağa çəkməyin məni*
*Göz yaşım sel kimi qoy axsın bugün.*
*Bilirəm Kamışın ruhu burdadı*
*Qoşulsun bir yerdə ağlayaq bugün.*

***

*İndi nə haldayam, halımı ancaq,*
*Sevgisin müqəddəs tutanlar bilər.*
*Sevib sevgilisin canından artıq,*
*İtirib məzara qoyanlar bilər.*

*Sənsiz həyatım da dönüb kabusa,*
*Heç nə ovutmur indi sınan qəlbimi.*
*Desələr dünyanı, gəl, verək sənə,*
*Mən səni seçərdim dünya yerinə.*

***

Qanadı qırılmış bir quşam indi,
Uçmağa həsrətəm, uça bilmirəm.
Bir canlı ölüyəm həyatda sənsiz,
Ölməyə hazıram, ölə bilmirəm.

Bir susuz çiçəyəm, solub ləçəyim,
Bir içim suyuna möhtacam sənin.
Gəl, su tök, göyərim, yenidən bitim,
Yaman qulluğuna möhtacam sənin.

Qurumuş budağam, ərimiş qaram,
İncidir sən mənə vurduğun yaram.
Biryolluq öldürmür qurtara canım,
Gəlib o dünyada mən sənə çatam.

## KAŞ SƏNLI GÜNLƏRIM OLAYDI

Kaş sənli günlərim olaydı, Kamış,
Mənim qulluğumda duraydın özün.
İşdən yorğun-yorğun evə dönəndə,
Bu sınmış könlümü alaydın özün.

Çölün soyuğunda tir-tir əsəndə,
Şaxta qılınc kimi məni kəsəndə,
Dilim söz tutmayıb, dodaq əsəndə,
Məni öz qoynuna alaydın, Kamış.

İsti nəfəsinə həsrətəm sənin,
Nə vaxtdır isinmir otağım mənim.
Yadımdan çıxmır heç sənli günlərim,
Məni nəfəsinlə, gəl, isit, Kamış.

Kaş sənli günlərim olaydı mənim,
Yanımda olaydın hər axşam, səhər.
Ürəyim ağrıyıb, qəlbim yananda,
Dərdimin dərmanı olaydın, Kamış.

Kaş sənli günlərim olaydı mənim,
Mən səni götürüb, çıxıb gedəydim.
Bir ucqar məkanda bir koma tikib,
Yaşayıb səninlə, sənlə öləydim.

Kaş sənin yerinə öləydim özüm,
Üstümdə ağlayıb, ağı deyəydin.
Göz yaşın düşəydi qəbrim üstünə,
Mənə şirin-şirin layla deyəydin.

***

Yadımdan çıxmır heç son günün sənin,
Qollarım üstündə can verdin mənim.
Boşaldı qolların yanıma düşdü,
Gözlərin son dəfə qapandı sənin.

Dilin tutulmuşdu, dinə bilmədin,
Söz demək istədin, əsdi dodağın.
Gözlərin yalvarıb imdad istədi,
Sinəmə dağ çəkib sən çıxıb getdin.

***

Yadıma düşəndə hər sözün sənin,
Titrəyir elə bil, vurmur ürəyim.
Mənə "anan ölsün" deyərdin hərdən,
Yadımdan çıxmır heç şirin dillərin.

***

Dağılsın Berlini, yerlə bir olsun,
Bir daşı daş üstdə qalmasın, Allah.
Silinib tarixdən yox olub getsin,
Aldı Kəmaləmi əlimdən, Allah.

Boyansın qanına qansız Xekkeri,
Nə qədər insanı boyayıb qana.
Doğrayıb sinəsin, ürəyin yarıb,
Doğransın onun da sinəsi, Allah.

Çoxunun qəlbinə o vurub yara,
Çoxusu peşiman dönüblər dala.
Ümidlə gedənin ümidin kəsib,
Kəsilsin onun da ümidi, Allah.

Kor olsun gözləri, tutulsun dili,
Əssin barmaqları, əssin əlləri.
Bıçağın əlində tuta bilməsin,
Qolları dibindən qurusun, Allah.

Xəstəlik yatağa, qoy, salsın onu,
Əzabla qurtarsın ömrünün sonu.
Tərpənə bilməsin, gəzə bilməsin,
Yalvarıb Allahdan ölüm istəsin.

***

Bir çinar olsaydım bitib yanında,
Sənin məzarına kölgə salardım.
Ucalıb göylərə, qol-qanad açıb,
Sənə gecə-gündüz layla çalardım.

Çətrimi çəkərdim sənin üstünə,
Borana, tufana sinə gərərdim.
Günəşdən, yağışdan qoruyub səni,
Sənin məzarında ömür sürərdim.

Narın yağış yağıb üstümə düşsə,
Süzülüb budaqdan yerə tökülsə,
Məzarın yaş olub səni üşütsə,
Bil ki, göz yaşımdı yağış tək yağan.

Yarpağım xəzan tək yerə tökülsə,
Sənin məzarının üstünü örtsə,
Yorğan tək bir azca səni isitsə,
Bil ki, nəfəsimdi isidən səni.

***

Hamı bayram edir, danışır, gülür,
Mənimsə bayramım qaradı, Allah.
Qaytar Kəmaləmi, Sən mənə qaytar,
Mənim də bayramım qoy olsun, Allah.

Yoxları var edən böyük Yaradan,
Mənim Kəmaləmi sən mənə qaytar.
Göz yaşım axmasın bir daha mənim,
O xoşbəxt günləri Sən mənə qaytar.

Qüdrətin böyükdü, gücün var sənin,
Torpaqdan sən insan yaratdın, Allah.
Qaytar Kəmaləmi, ona həyat ver,
Son qoyaq bu qəmə, kədərə, Allah.

Yaman tələsirdin evə gəlməyə,
Bilirdin, vaxtına az qalıb sənin.
Biz səni həsrətlə gözləyən kimi,
Demək gözləyirmiş fələk də səni.

Yaman tələsirdin evə gəlməyə,
Bilirdin, ömrünə bircə ay qalıb.
Elə bil gəlmişdin yır-yığış edib,
Bizlə sağollaşıb çıxıb getməyə.

Bircə ay evimin qonağı oldun,
Nur verdin evimə, yandı çırağım.
O zalım fələyin nəyinə söyüm,
Qopardı əlimdən, səni apardı.

Bilmirəm fələyin nəyindən küsüm,
İşidir can almaq, can alır o da.
Fərqi yox yaşlıdı, ya cavan uşaq,
Vaxtın tamamında haqlayır səni.

Yaman sevinmişdim, “ey vah” demirdim,
Dağılıb getmişdi qəmim, kədərim.
Demə qabaqdaymış məni incidən,
Nisgilli, kədərli, ağır günlərim.



***

Yaman həsrətini çəkmişəm sənin,
Qayıt gəl yanıma sən bir gün mənim.
İyləyim, qoxlayım, bağrıma basım,
Çəkim ciyərimə ətrini sənin.

Bir günlük, saatlıq, bir anlıq qayıt,
Qayıt ürəyimi boşaldım sənə.
Axı gedəndə sən qəfil getmisən,
Çoxdu ürəyimdə sözlərim sənə.

Bir söz də demədin gedəndə mənə,
Qəflətən yığışıb sən çıxıb getdin.
Kaş mənə bir kəlmə sən söz deyəydin,
Ömürlük yadigar qalaydı səndən.

Elə bil nədənsə küsmüşdün məndən,
Vidasız, sağolsuz sən çıxıb getdin.
Ömründə bir dəfə tək qoydum səni,
Sən məni ömürlük tək qoyub getdin.

Hərdən qınayıram indi özümü,
Berlinə mən sənlə niyə getmədim.
Bəlkə də olsaydım sənin yanında,
Mən səni bu yoldan çəkindirərdim.

Hərdən günahkar tək özüm özümü,
Qınayıb söyürəm, bilmirəm nədən.
Hərdən də üz tutub böyük Allaha,
Küsürəm bəxtimə düşən talehdən.

Analar müqəddəs, atalar uca,
Bax, belə yazılıb həyat boyunca.
Ata vüqarına dağlar da çatmaz,
Atasız, anasız həyat da olmaz.

Deməyin çıxmısız yadımdan mənim,
Heç yaddan çıxarmı ata-analar.
Unuda bilmərəm heç zaman səni,
Doqquz ay bətnində gəzdirdin məni.

Mənə bu dünyada sən həyat verdin,
Mən səni incitdim, sən məni sevdin.
Qoymadım gecələr yatasan səni,
Bəslədin südünlə, böyütdün məni.

Dil açıb, danışıb, dinənə qədər,
Gözlərim deyəni başa düşmüsən.
Gecələr yatmayıb, yuxusuz qalıb,
Ömrünü, gününü mənə vermisən.

Min bir əzab ilə böyütdün məni,
Yudun bələyimi, yudun başımı.
Hərdən də danlayıb, sən öyüd verib,
Silmisən gözümdən axan yaşımı.

Mən çox qısılmışam sənin qoynuna,
Baş qoyub dizinə yatmışam, ana.
Hərdən də ağlayıb, zəhləni töküb,
Səni istəmədən yormuşam, ana.





## NİYƏ GƏLMİSƏN?!

Demirsən, bəs sənin Kəmalən hanı,
Sən bura bəs onsuz niyə gəlmisən.
Açmazdın qapımı sən onsuz heç vaxt,
Bax, indi gəzməyə onsuz gəlmisən.

Onsuz istəmirəm kimi-kimsəni,
Onsuz istəmirəm bu evdə səni.
Dağ çəkib yandırdın mənim sinəmi,
Sən onsuz bu evə niyə gəlmisən.

Sən necə gəzərsən bağı, bağçanı,
Deməzlər Kəmalən bəs sənin hanı.
Qoyub məzarını orda kimsəsiz,
Bura Kəmaləsiz niyə gəlmisən.

Darıxıb eyvanım, otağım mənim,
Nə vaxtdır açılmır yatağım mənim.
Qoy, gəlib o silsin, o da süpürsün,
Bura Kəmaləsiz niyə gəlmisən.

Toxunma çiçəyə, güllərə dəymə,
Bu bağın, bağçanın gülü onundu.
Gözləyək nə vaxtsa gələr Kəmalən,
Bura Kəmaləsiz niyə gəlmisən.

Ağaclar, kollarda inciyib səndən,
Gərək gəlməyəydin sən bura onsuz.
Dil açıb soruşar, hanı Kəmalən,
Bura Kəmaləsiz niyə gəlmisən.

Gedib o bulaqdan bir az su içsən,
Suyun şırıltısın, səsin eşitsən,
Bulaq pıçıldayıb soruşar səndən,
Bura Kəmaləsiz niyə gəlmisən.

Qalxarsan bulaqdan bir az yuxarı,
Gedərsən ordakı sən gölə sarı.
O göl də deyəcək, sən niyə təksən,
Bura Kəmaləsiz niyə gəlmisən.

Bilmirəm nə deyim mən indi sizə,
Yox olub Kəmaləm, uçub göylərə.
Yandırıb, dağ çəkib, tək qoyub məni,
Mən onsuz qalmışam, onsuz gəlmişəm.

## DÜNYA

Mən sənə nə deyim, ay belə dünya,
Bir qəm dəryasısan əzəldən bəri.
Çoxların boğmusan bu dəryada sən,
Mənə də pay verdin bu qəm-kədərdən.

Yüz illər, min illər belə olmusan,
Kimləri udmayıb torpağın sənin.
Nə qədər sən qoca, cavan udmusan,
Gözlərin hələ də doymayıb sənin.

Qılıncı sən sağa, sən sola çaldın,
Şahları taxtından qoparıb aldın.
Baxmadın gəlinə, baxmadın bəyə,
Toy günü gərdəkdə sən canını aldın.

Öldürdün ananı, əzdin atanı,
İnsafın, mürvətin bəs sənin hanı.
Əzrail at minib gəzir cahanı,
Əzəldən zülm etdin insana, dünya.

Haqsız, ədalətsiz dünya olmusan,
Namərdə güc verib, mərdi qovmusan.
Yaxşını yamanın önündə əyib,
Dərisin soydurub, gözün oymusan.

Analar dul qalıb, uşaqlar yetim,
Həsrətin çəkiblər quru çörəyin.
Kimsə heyvanına verən yeməyin,
Sən yetim-yesirə vermədin, dünya.

Kimisi pul ilə tonqal qalayır
Kimisi acından torpaq yalayır.
Adam var pul tapmır dərmanın alsın,
Bax, belə dünyasan, yadında qalsın.

Kimini qul etdin, kimisin əsir,
Kimisi can alır, kimi baş kəsir.
Kimi gözü yaşlı, övladın gəzir,
Dərdin özündən də böyükdü, dünya.

# MƏNİM DÜNYAM

Qoy sənə belə bir şeir də yazım,
Bilsinlər nə qədər sevmişəm səni.
Sən mənim həyatım, canım, ciyərim,
Qolumun gücü idin, tutan əllərim,
Şirin xəyallarım, həyat gerçəyim,
Sən mənim dünyamdın,
Sən mənim dünyam...

Sən mənim ürəyim, damarda qanım,
Bədəndə ruhumdun, cismimdə canım,
Sən mənim hər şeyim, həyat amalım,
Sən mənim dünyamdın,
Sən mənim dünyam...

Çəməndə çiçəyim, dağlarda qarım,
Bağlarda bülbülüm, əhdim, ilqarım,
Sevincim, şadlığım, dövlətim, varım,
Sən mənim dünyamdın,
Sən mənim dünyam...

Bir dağ çiçəyi idin sən, zərif, incə,
Bir gül ləçəyi idin, bir tərli qönçə,
Ətirli bənövşə, bir şehli lalə,
Sən mənim dünyamdın,
Sən mənim dünyam...

Dincliyi yanında tapırdım sənin,
Bir nurlu çıraqdın yolumda mənim,
Görən gözüm idin, arzum, diləyim,
Sən mənim dünyamdın,
Sən mənim dünyam...

Dar gündə ümidim, dostum, sirdaşım,
Başımın tacı idin, həyat yoldaşım,
Qəlbimin açarı, sevgi qaynağım,
Sən mənim dünyamdın,
Sən mənim dünyam...

Danışan dilimdin, gülən gözlərim,
Ruhuma ruh verən bir ilham pərim,
Sən şahı olmusan şux gözəllərin,
Sən mənim dünyamdın,
Sən mənim dünyam...

Bütün varlığımla sevirdim səni,
Yanında tapmışdım xoşbəxt günləri,
Sən məni tək qoyub gedəndən bəri,
Zülmətə qərq olub o gözəl dünyam.
Sən mənim dünyamdın,
Sən mənim dünyam...

Yarışa çıxsalar bütün gözəllər,
Yığışıb gəlsə də huri mələklər,
Bax, orda kimisə gözəl seçsələr,
Deyərlər dünyanın gözəli sənsən,
Dünyaya tək gəlib, tək də getmisən,
Sən mənim dünyamsan, dünyam olmusan,
Sən mənim dünyamdın,
Sən mənim dünyam...

***

Bir yaxşı cərraha ehtiyacım var,
Qoy, yarıb sinəmi doğrasın mənim.
Çıxarsın qəlbimi, ikiyə bölsün,
Silsin içindəki dərdləri, Allah.

Kəssin ürəyimi, qoy, axsın qanım,
Qurtarsın əzabdan, zillətdən canım.
Daş basıb qəlbimə, daşa çevirsin,
Daş qəlbli insana mən dönüm, Allah.

Heç nəyə çatmasa gücü, qüvvəsi,
Dəyişsin qəlbimi, yenisin qoysun.
Çevirsin, qoy, məni başqa insana,
Qurtarım bu dərddən, kədərdən, Allah.

***

Yaman tez dəyişir indi fəsillər,
Elə bil qısalıb, gödəlib günlər.
Bir göz qırpımında yox olub gedir,
Sənsiz yaşadığım o acı günlər.

Yenə bahar gəlib, açılıb güllər,
Bürüyüb hər yanı əlvan çiçəklər.
Lalədən don geyib çöllər, çəmənlər,
Qəlbim qan ağlayır baxanda sənsiz.

Bir sevgi nəğməsin oxuyur quşlar,
Cütləşib bir yerdə yuva qururlar.
Hər yanda ucalır bülbülün səsi,
O da nalə çəkir, ağlayır sənsiz.

Günəş şəfəqlərin yayıb dünyaya,
Qarlar suya dönüb tökülür çaya.
Əriyir dağların qalın qar qatı,
Ərimir qəlbimin nisgili sənsiz.

***

Gözlərim bir zirvə, bir dağ axtarır,
Çıxım, zirvəsindən boylanım bir az.
Baxıb uzaqlara, xəyala dalıb,
Sənin xəyalınla yaşayım bir az.

Bulud tək sürünüm dağların üstdə,
Ağlayıb dağları isladım bir az.
Yadıma mən salıb sənli günləri,
Səni xatırlayıb ağlayım bir az.

Bu dağlar ağacsız, meşəsiz olsun,
Gözlərim uzağı, qoy, yaxşı görsün
Dolanım zirvəsin, sərt qayaların,
Bəlkə sakitləşəm mən orda bir az.

Gəzim yamacları, gəzim düzləri,
Yığım çiçəkləri, dərim gülləri,
Toplayıb bir qucaq geriyə dönüm,
Gəlim məzarına mən düzüm sənin.

***

Bu bayram günündə olmasan da sən,
Yığmısan hamını başıma mənim.
Süfrəmiz genişdir, hər şeyimiz var,
Çatmayan yerindi boş qalıb sənin.

Könlüm açılmır heç, üzüm gülmür heç,
Sən məni tək qoyub gedəndən bəri.
Təkliyi özümə həmdəm seçmişəm,
Tək qalıb təkliyi görəndən bəri.

Demək, qismətimə belə yazılıb,
Mən sənsiz yaşayım, mən sənsiz qalım
Çəkim həsrətini bu dünyada mən,
Sənin həsrətinlə alışım, yanım.

Sən gedən o gündən dəyişib hər şey,
Bayramlar qaraya bürünüb sənsiz.
Yaşıl səmənilər dəyişib donun,
Yaşılı sarıya dəyişib sənsiz.

***

Darıxma, əzizim, sən orda mənsiz,
Gələcəm yanına nə vaxtsa bir gün.
Yəqin ayrılmarıq orda bir daha,
Əbədi dünyamız bir olar bizim.

***

Doldurub gözümü göz yaşım mənim,
Baxıram, heç yanı görə bilmirəm.
Elə bil qarşımı duman, çən kəsib,
Yolumu azmışam, gedə bilmirəm.

Bu yazıq gözlərim neyləsin axı,
Nə vaxtdır yolunu gözləyir sənin.
Bir qayıt geriyə, yanıma bir gəl,
Bəsdir göz yaşımı axıtdın mənim.

Gəl, sil gözlərimi dəsmalınla sən,
Axmasın gözümdən axan göz yaşım.
O incə əllərin, qoy, dəysin mənə,
Qurusun gözümdə göz yaşım mənim.

İnan ki, gözlər də bir bulaq imiş,
Suları bulaq tək hey axıb gedir.
Qurumaz suları dərdli gözlərin,
Çağlayan bulaq tək hey axıb gedir.

Bilsəydim beləymiş vəfasız dünya,
Üz tutub dünyaya gəlməzdim heç vaxt.
Sevib sevilməyə biganə baxıb,
Sevgini yaxına qoymazdım heç vaxt.

Bilməzdim ayrılıq belə tez olar,
Bilsəydim bu qədər sevməzdim səni.
O qədər ürəkdən bağlanıb sənə,
Dərdini, bax, indi çəkməzdim sənin.

## AĞLAMA

Bəsdir ağladın sən, göz yaşı tökdün,
İslanıb məzarım yaş olub mənim.
Ağlayıb ağlatma, sənallah, məni,
Artıq kəfənim də yaş olub mənim.

Ağlayıb, sızlayıb, üzülsən də sən,
Qayıdıb yanına gələ bilmərəm.
Gəlib qəbrim üstə ağlama hər gün,
Rahatca, qoy, yatım məzarımda mən.

Demirəm sən unut, çıxar yadından,
Sil, at ürəyindən, qəlbindən məni.
Sən məni yadına salıb ağlama,
Ağlayan görməyim bir də mən səni.

Bir yaxşı fikirləş, bir yaxşı düşün,
Çatmaz köməyimə göz yaşın sənin.
Yaşa ruhum üçün sən bundan belə,
Yaşat, arzularım yaşasın mənim.

Getdin, bərbad etdin mənim dünyamı,
Yandırdın, dağ çəkdin, məni dağladın.
Göstərdin sağ ikən cəhənnəm odun,
Denən, ağlamayım, bax, necə sənsiz.

## MƏNİ AXTARACAQSAN

Hələ çox yandıracaq yoxluğum səni
Məni yada salıb ağlayacaqsan
Bir toyda, məclisdə, bir yas yerində
Gözlərin hər yerdə gəzəcək məni
Sən məni hər yerdə axtaracaqsan.

Kimsə danışanda, deyib güləndə
Bir xoşbəxt cütlüyü xoşbəxt görəndə
Qız gəlin toylarda yallı gedəndə
Baxıb için-için ağlayacaqsan
Sən məni hər yerdə axtaracaqsan.

Küçədə, bayırda sən yol gedəndə
Mənim tək bəstəboy birin görəndə
O susub yanından ötüb keçəndə
Ah çəkib içindən dağlanacaqsan
Sən məni hər yerdə axtaracaqsan.

Sən çıxıbbir kəndə meşəyə getsən
Yaşıl çəmənləri, düzləri görsən
Gülləri oxşayıb, ətrin iyləsən
Sən məni hər yerdə axtaracaqsan

Bir gün məclis qurub qonaq çağırsan
Qohum qardaşları evinə yığsan
Məclisdə çatmayan nəyisə duysan
Sən baxıb şəklimə ağlayacaqsan
Sən məni hər yerdə axtaracaqsan.

Bir gün xəstələnib yatağa düşsən
Sən bir az titrədib, bir az üşütsən
Qızından, gəlindən nəsə  istəsən
Bax yenə qəlbində Kəmaləm deyib,
Səni məni hər yerdə axtaracaqsan.

Bunu yadda saxla çıxarma yaddan
Bir gün ölüb gedir yaranan insan
Sən də bu dünyadan köç edən zaman
Göz açıb hər yana boylanacaqsan
Sən məni hər yerdə axtaracaqsan.

Gözlərin qapansa dünyadan köçsən
Vəfasız dünyaya əlvida desən
Ruh olub səmaya, göylərə getsən
Sonsuz kainatı gəzib dolanıb
Sən məni ordada axtaracaqsan
Sən məni hər yerdə axtaracaqsan...

## VƏTƏN

Azəri oğluyam bir dağ vüqarlı
Vətənim bəllidi, yurdum Qubadlı
Bərgüşad mahallı, Həkəri adlı
Gur sulu çağlayan çaylarım olub
Mənim də öz elim, oylağım olub.

Sıldırım qayası, sərt yamacları
Başında  qar qalan uca dağları
Yaşıl çəmənləri, meyvə bağları
Armudu, alması, heyvası olub
Mənim də öz elim, oylağım olub.

Dağlarda qıy vuran qızılquşları
Kəkliyi, turacı, qırqovulları
Sərin bulaqları, ayna suları
Bir gözəl məskənim, bir elim olub
Mənim də öz yurdum vətənim olub.

Qır at əfsanədi, boz at həqiqət
Çənlibel xəyaldı, Qubadlı cənnət
Koroğlu Nigarla bir xalq dastanı
Mənimsə öz Nəbim, Həcərim olub
Öz elim, öz obam, vətənim olub.

Çoxdu bu yurdumun qəhrəmanları
Şairi, ədibi, söz yazanları
Dədə Süleymanı dağlar vüqarı
Arifi, Şamosu, Əlyarı olub
Mənim də öz elim oylağım olub.

İndi viran qalıb o gözəl yurdum
Darıxıb çölləri, düzləri bizsiz
Yox olub laləsi, gülləri açmır
Dağlar qan ağlayır bax indi bizsiz.

Çayların nəğməsi naləyə dönüb
Bulaqlar göz yaşı axıdır indi
Obalar səs-küysüz evlər yiyəsiz
Yurdum viran qalıb bax indi bizsiz.

İnciyib ruhları məzarlıqları
Gedəni, gələni, baxanı yoxdu
Mir Sədi ağanın, mir Məhəmmədin
Məzarın ot basıb bax indi bizsiz.

# ANAM OLAYDI KAŞ

Bu gün toy günümdü evlənirəm mən
Kaş mənim yanımda olaydın Ana...
Salaydın çiyninə gəlin şərfini
Bizə xeyr dua verəydin Ana.

Nə qədər olsada bibi xalalar
Bax sənin duana ehtiyacım var...
Kaş özün verəydin xeyir-duanı
Kaş bu gün yanımda olaydın Ana.

Gözlərim həsrətlə axtarır səni
Yaman məyus edib yoxluğun məni
Kaş sən də bu toyda olaydın bu gün
Oynayan görəydim burda mən səni.

Bilirəm başımın üstədi ruhun
Dolanır məclisi o bizi görür
Analar müqəddəsdi ölmür heç zaman
Qəlblərdə yaşayır, ruha çevrilir.

Qoy sizə mən verim xeyir-duamı
Eşitsin qoy hər kəs, qoy bilsin hamı
Mən ola bilmədim bu gün yanında
Qoy sizə yar olsun o uca Tanrı !

O sizə qoy oğul, qız payı versin
Xoşbəxtlik qapından əskik olmasın
Xoş günlər, xoş günün üstünə gəlsin
Mən baxım,qoy ruhum sevinsin oğlum...

# TƏK QOYUB GETDİN

Yaman öyrətmişdin özünə məni
Bəs niyə sən məni tək qoyub getdin?
Deyirdin ürəkdən sevirəm səni
Dağ çəkib sinəmə sən çıxıb getdin.

Budurmu sevməyin, budurmu sevgin?
Budurmu sən mənə verdiyin ürək?
O mənə verdiyin xəstə qəlbini
Sən nə tez əlimdən qoparıb getdin?

Yalanmış sözlərin, yalanmış sözün,
Yalanmış sən mənə verdiyin vədin
Əgər sevmişdinsə məni ürəkdən
Ölümə mənimlə birgə gedərdin.

Bağışla, əzizim, bağışla, məni
Hərdən inciyirəm, küsürəm səndən
Hərdən də oturub düşünəndə mən,
Küsürəm bəxtimə düşən taledən.

Bağışla, qoruya bilmədim səni
O zalım fələyə gücüm çatmadı
Boranlı,  şaxtalı bir soyuq  gündə
Əlimdən qoparıb səni apardı.

Mən görə bilsəydim zalım fələyi,
Diz çöküb önündə mən yalvarardım
Verərdim mən ona qalan ömrümü
Sənə bircə günlük möhlət olardım.

Bağışla, əzizim, məni bağışla,
Bağışla, qoruya bilmədim səni
Bəlkə ona görə incidin, küsdün
Bəlkə ona görə sən çıxıb getdin.

# YUXUMDA GETMİŞDİM

Yuxumda  getmişdim mən öz yurduma
Gəzdim qarış-qarış hər çölü düzü
Gəzdim obaları gəzdim elləri
Yurdumu dağılmış bir halda gördüm

Dolandım kəndimin dar küçələrin
Gördüm gözlərimlə uçuq evlərin
Yox olub getmişdi yollar irizlər
Viranə qalmışdı o gözəl kəndim.

Nə qədər ağırdı ilahi baxmaq
Dağılıb yox olmuş Ata yurduna
Bir daş qalmamışdı bir daşın üstə
Mən Ata yurdumu o halda gördüm.

Yuxumda olsa da keçmişə döndüm
Keçdi göz önümdən ötən illərim
Bir vaxtlar toy-düyün şadlıq gördüyüm
Evimi yiyəsiz kimsəsiz gördüm.

Mənim də toyum bu evdə olub
Gəlin otağıydı durduğum bu yer
İndi nə yurdum var, nə də Kəmaləm.
Mən öz həyatımı yuxumda gördüm.

## KƏMALƏM YANIMDA OLAYDI

Yığmısan üst-üstə qəmi kədəri
Bu ömrü sən mənə niyə vermisən
Almısan əlimdən can sirdaşımı
Bu varı-dövləti niyə vermisən.

Əynimdə olaydı köhnə köynəyim
Bir cırıq şalvarım sökük pencəyim.
Olaydı yeməyə yavan çörəyim
Heç nə istəməzdim mən səndən daha
Kəmaləm yanımda olaydı  Allah.

Qamışdan bir komam bir uçuq evim
Bir mitil döşəyim, bir yataq yerim
Bir köhnə çırağım, bir odun peçim
Heç nə istəməzdim mən səndən daha
Kəmaləm yanımda olaydı Allah.

Hamballıq edəydim çöldə bayırda
Mən yük daşıyaydım yol süpürəydim
Əllərim döyənək qabaq olaydı
Qan tərin içində dönəydim evə
Kəmaləm yanımda olaydı Allah.

Mən çox istəmədim çox şeyi səndən
Var-dövlət, nə qızıl, nə pul istədim
Saray əvəzinə qamışdan koma
Bir də Kəmaləmi səndən istədim.

Səndən istəmədim şahlıq, şah tacı
Nə bir bağ, nə cənnət, nə gözəl həyat
Içməyə bir az su, bir yavan çörək
Bir də Kəmaləmi səndən istədim.

Bağışla, Allahım məni bağışla
Heç vaxt naşükür olmamışam mən
Verdiyin nə varsa çox şükür deyib
Təkcə Kəmaləmi səndən istədim.

# GƏLMƏ MƏZARIMA

Gəlmə məzarıma bir də sən mənim
Gəldiyin bəsimdi, gəlmə bir daha
Mənə əzab verir göz yaşın sənin
Gəlib məzarıma ağlama mənim
Gəlmə məzarıma gəlmə bir daha.

Sürtüb əllərini məzar daşıma
Ağlayıb gözündən qan-yaş tökürsən
Düşdükcə göz yaşın məzarım üstə
Mənə əzab verib sən incidirsən

Başını qaldırıb ətrafa bir bax
Heç burdan geriyə dönənmi olub
Əbədi yuxudu bizim bu yuxu
Ağlayıb incitmə qoy rahat yatım
Gəlib məzarımda ağlama mənim
Gəlmə məzarıma gəlmə bir daha.

## GÖZLƏRİM AXTARIR SƏNİ

O qara qaşlara, qara gözlərə
O ipək saçlara, siyah tellərə
Nə vaxtdı sən həsrət qoymusan məni
Gözlərim hər yerdə axtarır səni.

Qapı döyüləndə, bir zəng çalanda
Bir səs eşidəndə,bir səs duyanda
Qapıya zillənir gözlərim mənim
Həsrətlə yolunu gözləyir sənin

Sənin gözlərinə baxanda hərdən
Bir dəniz görürdüm gözlərində mən
Durub sahilində xəyala dalıb
Gözlərim dolurdu bilmirəm nədən

Bütün varlığınla çalısşanda sən
Gizlədə bilmirdin heç nəyi məndən
Mənən gizlətdiyin gizli nə varsa
Sənin gözlərindən oxuyurdum mən.

Nələri deməyib o gözlər mənə
Səhvimi, düzümü, yaxşımı deyib
Hərdən yanılanda mən öz yolumdan
Mənə yol göstərib  məsləhət verib.

O gözlər nələri deməyib mənə
Baxıb gözlərimə imdad istəyib
Bilirdi ölümü uzaqda deyil
Doyunca bizlərə baxmaq istəyib.

## VƏFASIZ OLDUN

Nə tez yaddan çıxdım, məni unutdun
Bir vaxtlar göz yaşı tökərdin hər gün
Dodağın əsərdi adım gələndə
Gözündə qanlı yaş tökərdin hər gün.

Deyərdin varlığımsan, ömrüm günümsən
Şirin söhbətimsən, şirin sözümsən
Sən mənim dünyamsan, iki gözümsən
Nə oldu sən belə vəfasız oldum.

Mənə həyatımsan, canımsan deyən
Canını yolumda ay qurban edən,
Sənsiz yaşamaram, ölərəm deyən
Nə oldu sən belə vəfasız oldun.

Dalımca sürünüb mənə yalvaran
Yolumun üstündə boynunu buran.
Kölgəmi izləyib yanımda duran
Nə oldu sən belə vəfasız oldun.

Durub yatağımın yanında mənim
Şübhə tək sən mənə keşik çəkərdin
Duyardın qəlbimin ağrı, acısın
Bütün dərdlərimi yarı bölərdin.

Demək yalanmış hər işin sənin
Yalanmış sən məni sevib sevməyin
Bəlkədə sevmişdim deyə bilmərəm
Bəs niyə sən belə vəfasız oldun.

Günahkar özüməm günah məndədi
Vaxtında tanıya bilmədim səni
Vermişdim könlümü qəlbimi sənə
Bilmirəm sən niyə vəfasız oldun.

## SƏN GEDƏN GÜNDƏN

Sən qoyma yuxuma girsin heç kimi
Özün gəl yuxuma ay ömrüm-günüm.
Bilirsən ürəyim ancaq səndədi
Qoyma ürəyimə girə heç kimi.

Bum-buzdu yatağım məzarın kimi
Isinmir sən çıxıb gedən o gündən.
Bir isti yatağa həsrət qalmışam
Sən məni tək qoyub gedən o gündən.

İsinmir otağım, isinmir evim
Bir buza çevrilib o isti qəlbim.
Yox olub şadlığım itib sevincim
Sən məni tək qoyub gedə o gündən.

Qızınmır ürəyim, soyuqdu qəlbim
Mən necə qızınım ay ömrüm-günüm.
Həsrət yuva salıb qəlbimdə mənim
Sən məni tək qoyub gedən o gündən.

Qayıt ocağına, evinə qayıt
Soyuq yatağına, yerinə qayıt
O xoşbəxt dünyamı sən mənə qaytar
Şadlığı, sevinci, toyu, bayramı
Üzdə təbəssümü, gülüşü qaytar.

Özüm də bezmişəm artıq özümdən
Əvvəlki Yaşarı sən mənə qaytar.
Qayıt gəl evinə ay ömrüm-günüm
Gözlərim nə vaxtdı axtarır səni
Mənim Kəmaləmi sən mənə qaytar.

# XOŞBƏXTLİK

Mənim də çox xoşbəxt günlərim olub
Mən də bilməmişəm qəm-kədər nədi.
Bir böyük ailəmiz evimiz olub
Qayğısız kədərsiz uşaq olmuşam.

Çəkməzdim dərdini o vaxt heç əyin
Geyərdim əynimə qardaş köynəyin.
Qaçıb oynayardım deyib gülərdim
Acanda tez qaçıb evə gələrdim.

Çoban tək qoynuna, mala getmişəm
Həyətdə iş görüb bostan əkmişəm.
Durub qulluğunda ata-anamın
Buyruğa baxmışam, söz eşitmişəm.

İlahi, qayıda bilsəydim mən o günlərə
O xoşbəxt aylara, xoşbəxt illərə
Çalışıb mən elə uşaq qalardım
Bu qəmli günlərdən uzaq olardım.

Ömrü az olurmuş xoşbəxtliyin də
Köçəri quş kimi uçub gedirmiş
Səhərlər şəfəqdə doğan günəş tək
Axşamlar yox olub çıxıb gedirmiş.

## NƏYİN ÇATMIR

Niyə qəmli-qəmli gəzirsən belə
De nəyin çatışmır, ay ömrüm-günüm.
Səni belə gördüm dağlandı sinəm
Axı nəyin çatmır, ay-ömrüm günüm?

Gözəl şəraitin, varın-dövlətin
Var bağlı-bağçalı  bir imarətin.
Yeməyə çörəyin, bir açıq süfrən
Denən, nəyin çatmır ay ömrüm-günüm?

Allahın hər şeyi bəxş edib sənə
Gözəl övladların, gözəl nəvən var.
Şükr edib Allaha nəvəni oynat
Axı nəyin çatmır ay ömrüm-günüm?

Deyirsən varımdı hər şeyim mənim
Gözəl şəraitim, varım-dövlətim
Gözəl övladlarım, gözəl nəvəm var
Demirsən çatmayan nəyim var mənim
İndi nəyim var ki, ay ömrüm-günüm?

Qoy deyim, çatmayan nəyim var mənim
O xoşbəxt aylarım, illərim çatmır!
Acılı, şirinli günlərin çatmır!
Elə bil yuxuymuş o xoş  günlərim
Indi nəyim var ki, ay ömrüm günüm?

Yox olub evimin gülü-çiçəyi
Puç olub qəlbimin arzu-diləyi.
Çəkilib evimdən gülüş səsləri
İndi nəyim qalıb ay ömrüm-günüm?

İtib, yoxa çıxıb bütün varlığım
Sönüb məhəbbətim yox olub sevgim.
Mən kimi istəyim, mən kimi sevim
Mənə deyirsən ki, nəyin var sənin
Sənsiz nəyim qalıb ay ömrüm günüm?

Bildinmi sən indi çatışmır nəyim?!
Bildinmi ağrıyır niyə ürəyim?!
Olmazdı dünyada bir başqa dərdim
Kəmaləm yanımda olsaydı mənim
Mənə deyirsənki nəyin var sənin,
Dərdimi bildin sən, ay ömrüm-günüm...

# YETİM QALMIŞAM

Yetimlik çətindi ağırdı qardaş
Yetimin cürbəcür növləri olur.
Onu göstərməsin heç kimə Allah
Yetimlik həyatda müxtəlif olur.

Dərd-qəm yuvasıdı kədər dünyası
Yetimlik əzabdı, zilətdi qardaş.
Qəlbləri dağlıyıb ürəklər yaxan
Ayrılıq, vüsaldı, həsrətdi qardaş.

Kimi yetim qalır Ata-Anadan
Yetimlik bəxtinə, payına düşür.
Ana vaxtsız köçür gedir dünyadan
Uşaq yetim qalır doğulan andan.

Kiminin qisməti ögey bir Ana
Kiməsə bir qəddar bir zalım Ata
Çoxunun qisməti atılmaq olur
Yaman qəddar olub bu dünya qardaş.

Yetim deyəndə düşünmə ki, sən
Yetimlər yiyəsiz körpələr olur
Fərq qoymur yetimlik heç kimə qardaş
Yetmin körpəsi, yaşlısı olur.

Nə çoxdu həyatda  yaşlı yetimlər
Qovulmuş analar, dərdli Atalar.
Nə çoxdu dünyada qocalar evi
Ora yaşlı yetimlərin evidi qardaş.

Indi mən özümdə yetim qalmışam.
Yetimlik mənimdə payıma düşüb.
Məni yetim qoyub gedim Kəmaləm
Bu dərdin acısın mən də dadmışam
Mən də bu yaşımda yetim qalmışam.

# BƏNÖVŞƏ

Hamı səndən yazıb qoy yazım məndə
Güllərin gözəli gözəl bənövşə.
Səni boynu bükük yaradıb Allah
Mənim tək dərdlisən, sən də bənövşə.

Kol dibin özünə məskən seçmisən
Xəzəldə gizlənib ömür sürmüsən.
Kimdən gizlənmisən, kimdən küsmüsən
Boynun bükük qalıb sənin, bənövşə.

Heç bir gülün ətri çatmaz ətrinə
Güllər inciməsin Allah xətrinə.
Bir gül ləçəyicən olmasanda sən
Güllərin şahısan gözəl bənövşə.

Bəzəyi olmusan bizim torpağın
Həmişə yaşıldı sənin yarpağın.
Yurdumuz öyünüb adınla sənin
Sevimli gülüydün sən Kəmaləmin.

## YENƏ BAŞ-BAŞAYIQ

Yenə baş-başayıq səninlə bu gün
Ruhundu, bir mənəm, bir də dörd divar.
Durmuşam şəklinin önündə sənin
Gözlərin gözümə dikilib mənim.

Fərqimiz nədədi bilirsənmi sən?
Sən cansız şəkilsən mən canlı ölü.
Sən susub baxırsan səssiz-səmirsiz
Mənsə alışıram yanıram sənsiz.

Bilirsən ürəyim doludur mənim
Bəlkə danışasan bir söz deyəsən.
Bəsdi gözlərimə sən baxıb susdun
Dağ çəkir sinəmə sənin susmağın.

Sən sus, mən danışım sən məni dinlə
Boşalsın ürəyim qoy bir az mənim.
Bilirəm danışa bilmir şəkillər
Gələrsən yuxuma bu axşam mənim.

Bilirəm sən yoxsan uzaqlardasan
Bilirəm əlçatmaz olmusan indi.
Girdin həyatıma bir yuxu kimi
Yuxu tək yox olub getmisən indi.

Bəlkədə yuxuymuş yaşadıqlarım
Bəs niyə yuxuma girmirsən yenə?
Axı yuxularda geriyə dönür.
Gördüyün yuxunu yenə görürsən
Geriyə dönməyən tək bircə sənsən.
Yuxu tək yox olub çıxıb getmisən...

## SƏN GETDİN

Getdin, viran qoydun mənim dünyamı
Əzildi, yox oldu, sındı bu dünyam.
Yüz il də yaşasam sənsiz dünyada
Düzəlməz bu dünyam düzəlməz daha.

Küsdürdün sən məni, küsdüm həyatdan
Yox olub gözümdə bu dünya mənim.
Heç nə ovundurmur sınan qəlbimi
Düzəlməz bu dünya düzəlməz daha.

Bütün varlığımı aldın əlimdən
Məni zəlil qoydun iki gözümdən.
Görmürəm dünyada sənsiz heç nəyi
Kor qalıb bu dünyam düzəlməz daha.

Ömürlük bir dağı çəkdin sinəmə
Silinməz sinəmin bu dağı mənim.
Məzara çevirdin mənim dünyamı
Düzəlməz bu dünyam düzəlməz daha.

## KÖÇÜM YAXINLAŞIB

Bizimdə sıramız yetişib artıq
Məndə yaşlanımşam yaşa dolmuşam.
Bir vaxtlar tutardım Ata əlindən
Indi qocalmışam baba olmuşam.

Vaxt gedir dayanmır zaman yerində
İllər karvan kimi hey ötüb gedir.
Köçüm yaxınlaşır ötdükcə hər gün
Əzrayıl qapımı döyəcək bir gün.

Ayrılıq dərdidi belimi büküb
Saçlarım düm ağdı, qaşa dən düşüb
Dərd-qəm ilan kimi yeyir qəlbimi
Artıq zəyifləyib vurmur ürəyim
Əzrayıl qapımda gözləyir mənim.

Çiçəkli baharım dönüb bir qışa
Yox olub qəlbimin istisi mənim.
Titrəyir bədənim bir yarpaq kimi
Qar, boran qapımı kəsdirib mənim.
Bəlkə də sonuncu qışımdı bu qış
Əzrayıl qapımda gözləyir mənim.

Titrəyir əllərim əsir barmağım
İtib yoxa çıxıb cavanlıq çağım.
Dizimdə taqət yox qollarımda güc
Düzəlmir qamətim bükülüb belim
Əzrayıl qapımda gözləyir mənim.

Yox olub gözümün nurlu işığı
Kar olub qulağım eşitmir mənim.
Artıq sözə baxmır əlim-ayağım
Köməksiz oturub dura bilmirəm
Köçüm yaxınlaşıb deyəsən mənim.
Əzrayıl qapımda gözləyir yəqin.

## KÜSMÜSƏN MƏNDƏN

Deyəsən küsmüsən ay Ana, məndən
Haqqın var söz tapıb deyə bilmirəm
Mən sizi ziyarət edərdim tez-tez
Sizi unutdurub mənə Kəmaləm.

Sən bir söz deyərdin o vaxtlar Ana
Atadan-Anadan yar şirin olur.
Yəqin ki, Atamı itirəndə sən
Bax onda bu sözü mənə demisən

Ayrılıq dərdini azca da olsa
O ahıl yaşında sən də dadmısan.
Küsmüşdün o vaxtlar sən də həyatdan
Çıxara bilmirdin Atamı yaddan.

Axı tək deyilsən ay Ana orda
Atam yanındadı, bax yenə sənin.
Birdi məzarınız yataq yeriniz
Kəmaləm tək qalıb bax burda mənim.

Bağışla, ay Ana, bağışla məni.
Yolumu dəyişib bu məzar mənim
Onun da gedəni gələni yoxdu.
Yolumu gözləyir həsrətlə mənim

# DƏYİŞƏN ZƏMANƏ

Dəyişib zəmanə pis olub dövran
Niyə belə olub zəmanə qardaş
Saxlayıb böyüdüb sevdiyin uşaq
Sənə qənim olur böyüyən zaman
Dünyamı dəyişib yoxsa zəmanə?
Niyə belə olub zəmanə qardaş.

Bir vaxtlar saxlayıb çörək verdiyin
Ona yazıq deyib hörmət etdiyin
Düşüb qabağına yol göstərdiyin
Dönüb ilan kimi dilində çalır.
Belə hara gedir bizim dünyamız
Niyə belə olub zəmanə qardaş.

Qardaşı öldürür doğma qardaşın
Şəriki olmasın ata mülkünün
Ata yetim qoyur öz övladların
Uf demir  ananın başını kəsir
Belə hara gedir bizim dünyamız.
Niyə belə olub zəmanə qardaş.

Göz yaşın axıdır oğul ananın
Ona əzab verir, əziyyət verir.
Üzsə də əllərin ana həyatdan
Yenə oğlum deyir, həyatım deyir.
Belə hara gedir bizim dünyamız
Niyə belə olub zəmanə qardaş.

O vaxtlar öyüdü ata verərdi
Tərbiyə nəsildən kökdən gələrdi.
Indi uşaq deyir, Atama bir bax
Artıq qocalmısan, sən yaşlanmısan
Sən deyən arxada keçmişdə qaldı
Başqa zəmanədi bizim zəmanə
Az qalır  ataya öyüd də versin
Belə hara gedir bizim dünyamız
Niyə belə olub zəmanə qardaş

Çoxunun vicdanı götürmür bunu
Namusla yaşayıb, qeyrətlə ölür.
Alçaqlıq damğasın vurmur alnına
Alnı açıq olur, vüqarlı olur.
Bax belə dünyaydı, bizim dünyamız
Indi yaman çöküb bu dünya qardaş.

## SƏN XOŞBƏXT ADAMSAN

Sən xoşbəxt adamsan, Kəmaləm mənim
Can verdin sən mənim qollarım üstə.
Tutmuşdun əlimdən var gücünlə sən
Qolların boşaldı qollarım üstə.

Bəxtəvər o kəsdi öldüyü zaman
Sevdiyi insanın qoynunda ölsün.
Baxsın gözlərinə son dəfə onun
Qolları üstündə dünyadan köçsün.

Bəs mən neyləyəcəm öləndə Allah?!
Mən kimin əlindən tutub sıxacam?
Kimdən gözlərimlə imdad istəyib
Mən kimin gözünə son kəz baxacam.

Mən də istəyirdim göz qapağımı
Öləndə Kəmaləm qapatsın mənim.
Sürtsün üz-gözümə incə əllərin
Dəsmalın çıxarıb məni ağlasın.
İllərlə yasımı saxlasın mənim.

# MƏLHƏM QOY YARAMIN ÜSTƏ

Niyə qaysaqlamır mənim bu yaram
Incidir ağrıdır sinəmi deşir.
Qışda soyuq qoymur qapansın yaram
Yayda isti vurub açır üstünü
Qoparır qaysağın yaz küləkləri.
Sağalmaq bilmir heç mənim bu yaram.
Nə vaxtsa yolun düşsə bu yana
Gəl özüm məlhəm qoy yaramın üstə.
Nə aylar sağaldır, nə ötən illər
Yaram dərinləşir getdikcə mənim.
Vurduğun yaranı özün bilirsən
Sağalmaz dəyməsə sənin əllərin.
Nə vaxtsa yolun düşsə bu yana
Bil ki bu dünyada gözləyənin var.
Qəm kədər içində qoyub getdiyin
Dünyada hər şeyə peşman etdiyin
Yolunu gözləyir hər axşam-səhər
Bilsə də qayıdıb gələn deyilsən
Yenə də ümüdün kəsməyib səndən.
Gəl özün məlhəm qoy yaramın üstə
Sağalmaz dəyməsə sənin əllərin.

# YARIMÇIQ SEVGİ

Neynirdim yarımçıq sevgini Allah
Sən niyə bəxtimə, payıma yazdın.
Vermişdin hərəyə bir sevgi payı
Mənimkin bəs niyə yarımçıq yazdın.

Mən heç doymamış sevgi payımdan
Sən onu əlimdən qoparıb aldın.
Dünyada sevgisiz yaşamaq olmur
Məni sevdiyimdən sən ayrı saldın.

Sevgi bir ömürdü sevgi həyatdı
Səni də dünyada bir sevən varsa..
Sevgi bir əzabdı, ən ağır dərddi
Sevdiyin o insan həyatsa yoxsa...

Yaman sərt yazılıb ömür dastanım
Xoş gündən çox olub qəmim-kədərim.
Yaman yuxuludu elə bil yatıb
Ayılmır yuxudan talehim mənim.

# ŞAİR DEYİLƏM

Mənə deyirlər ki dəyiş mövzunu
Mən necə dəyişim mən nədən yazım.
Mən yaza bilmirəm başqa heç nədən
Axı mühəndisəm, şair deyiləm.

Dərsdə boylanardım arxa partadan
Dəftər kitab ilə olmayıb aram.
Hərdən əzbərləyib üç-dörd alardım
İlləri mən belə yola salardım.

Bölə bilməmişəm sözü hecaya
İnşadan həmişə kafi almışam.
Olmayıb könlümdə şairlik eşqi
Şeirdən, qəzəldən uzaq olmuşam.

Dərd-qəmdən yazmışam nə yazmışamsa
Mən yaza bilmərəm şairlər kimi...
Bəxtiyar deyiləm, Səməd deyiləm
Içimdə göynəyən dərddən yazmışam.
Mən yenə yazacam yazdığım kimi...
Qəlbimdə tək sənsən, səndən yazacam
Adını qəlbimə yazdığım kimi...

## OĞLUMA MƏKTUB

Bir məktub yazmışam sənə, ay oğlum
Oxu sözlərimi çıxarma yaddan.
Saxla yaddaşında yadında qalsın
Pak gəlir dünyaya yaranan insan.

Uşaq ağ vərəqdi ləkəsiz, təmiz
Dünyaya gələndə tər-təmiz olur.
Alnına yazsada  talehin Allah
Dünyada çox şeydən xəbərsiz olur.

Dünyada öyrənir yaxşını-pisi
Kimi nadan olur, yaramaz olur.
Yaxşılıq kəlməsin bilmir o insan
Pislikdən həzz alıb feyziyab olur.

Adını uca tut şərəflə yaşa
Qoyma xəyanəti girsin qəlbinə.
Uzaq tut qəlbindən kini-nifrəti
Qoyma ləyaqətin alçala oğlum.

Qeyrətlə ömür sür, namusla yaşa
Qoyma vicdanına bir ləkə düşsün.
Başın uca olsun vicdanın təmiz
Namərdin önündə baş əymə oğlum.

Gözəllik axtarma üzlərdə heç vaxt
Gözəllik insanın qəlbində olur.
Siması günəşdən gözəl olsada
Görürsən içində şeytan gizlənib.

Aldanma heç kimin şirin dilinə
Gözəl simasına gülər üzünə.
Çalış qəlbindəki niyətin oxu
Ürəklər fərqlidi üzlərdən oğlum.

## HANI KƏMALƏM MƏNİM

Çəkilmir evimnən o xoş nəfəsin
Gəlir qulağıma o incə səsin.
Özün olmasanda bu gün yanımda
Elə bil kölgəmsən yanımda mənim.

Yalanmış var-dövlət, yalanmış ad-san
Çatmaz köməyimə tək qalan zaman.
Qızıldan tac qoyub gəzsədə insan
Sevgiyə möhtacdı mənсə hər zaman.

Elə istəyirəm nazını çəkəm
Min nazla qarşıma çıxasan mənim.
Çəkəm əllərimi incə telinə
İpək saçlarından mən öpəm sənin.

Hanı evimdəki o xoş günlərim?
Hanı evimdəki Kəmaləm mənim?
Kədərli günümdə yanımda duran
Mənə sığal çəkib könlümü alan
Mənim hər dərdimin şəriki olan
Hanı evimdəki Kəmaləm mənim?

Hanı evimdəki gülüş səslərin
O süzgün baxışın, gülən gözlərin
Nə vaxtdı susmusan yoxa çıxmısan
Hanı evimdəki Kəmaləm mənim?

## YAMAN QOCALMISAN

Nə yaman ağarıb saçların sənin?
Tanınmaz olmusan ay ömrüm-günüm.
Nədi ürəyini incidən sıxan
Nədi üzündəki bu kədər sənin?

Yaman qocalmısan bu iki ildə
Çatışmır əlində bir əsan sənin.
Nədi içindəki o dərdin-qəmin
Nədi saçlarını ağardan sənin?

Mənmi ağartmışam o ağ saçları?
Mənmi çəkdirmişəm sinənə dağı?
Mənmi qocaltmışam səni bu qədər?..
Yox...
Heç vaxt istəməzdim səni incidəm
Mən səni sevirdim dünyalar qədər.

Heç vaxt istəməzdim qəlbinə dəyəm
Səni qaşqabaqlı pərişan görəm.
Neyləyim qismətin talehim buymuş
Bəxt yazan bəxtimi belə yazıbmış.

Xəstəlik qoymadı gözümü açam,
Qara bulud kimi kəsdi üstümü.
Qoymadı rahatca gəzəm dolanam
Kəsdi yarı yolda mənim ömrümü.

## OLMASIN

Küsdürmə heç kimi heç vaxt həyatda
Qoy-səndən inciyib küsən olmasın.
Hirslənsən hirsini sən boğ içində
Kənardan qoy baxıb görən olmasın.

Fəqirə kömək  dur, yetimə arxa
Çalış insanlığa bir faydan olsun.
Kimə kömək etsən gizlində elə
Nadanlar dilində əzbər olmasın.

Deyirlər əl tutmaq Əlidən qalıb
Əl tut ki, qoy Əli köməyin olsun.
Qəlbini düz saxla Allahınla sən
Qəlbində pis niyyət, nifrət olmasın.

# DÖNÜB ÜZÜMƏ BAXMADIN

Yanımdan keçirdin o  gün sən mənim
Dönüb mən tərəfə heç baxmadında.
Yadlar kimi ötüb keçdin yanımdan
Salamsız sağolsuz sən çıxıb getdin.

Bilmirəm fikirliydin yoxsa ki, nəydi...
Sən burdan keçməzdin mənə  baxmamış.
Gözlərin gəzərdi məzar daşların
Məni axtarardın, məni tapardın
Mənnən salamlaşıb, sağollaşardın.

İndi deyəcəksən haqsız  danışma
Səni ziyarətə gəlirəm hər gün.
Sürtüb əllərimi məzar daşına
Üstünə qərənfil düzürəm hər gün.

Bilirəm yadından çıxmamışam mən
Bilirəm, yanıma gəlirsən hər gün.
Ancaq istəyirəm burda keçəndə
Sən dönüb üzümə baxasan mənim.
Səni salamlayıb yaxşı yol deyib
Arxanca bir xeyli mən baxam sənin.

## GETMƏK İSTƏYİRƏM

Hərdən getmək istəyirəm mən uzaqlara
Bir sakit, kimsəsiz bir məkan olsun.
Qalım dərdlərimlə baş-başa orda
Məni kövrələndə görən olmasın.

Çoxdu ürəyimdə giley-güzarım
Dərdimi heç kimə deyə bilmirəm.
Qoy deyim dağlara dağlar eşitsin
Bu dərd mənimkidi, qoy mənim olsun
Bu dərdim kimsəyə bir yük olmasın.

Səsimə səs verin o şiş qayalar
Təsəllim qoy olsun çaylar, bulaqlar.
Dərdimi bölüşsün tənha ağaclar
Mənimtək tək qalıb, tənha olmasın.

Darıxır ağacda tənha qalanda
Yanında söykənən biri olmasa.
İnsantək ağacda sirdaş istəyir
Qoy olsun hər kəsin dostu sirdaşı
Mənimtək tək qalıb tənha olmasın.

## SƏN YAZI SEVƏRDİN

Sən yazı sevərdin, çiçəkli yazı
Gül-çiçək dəlisiydin, bahar vurğunu
Yazda sevinərdin, deyib gülərdin
Hər gülə çiçəyə sığal çəkərdin.

Yazda sevinərdin bir uşaq kimi,
Çəməndə gül yığan qızcığaz kimi.
Bax, yenə yaz gəlib, sevdiyin o yaz
Gül-gülü çağırır, çiçək-çiçəyi
Çəməndə uçuşan kəpənək kimi..

Quşlar nəğmə deyir bülbül  oxuyur
Yazı salamlayır bütün təbiət.
Yaşıldan don geyib çöllər-çəmənlər
Rəngi ilə öyünür əlvan çiçəklər.
Nə qədər cənnətdə olsa dünyamız
Mənə zindan olub bu dünya sənsiz.

## DEMƏ YUXUYMUŞ

Mənə dedilər ki, Kəmalən gəlir
Sevincdən ağladım göz yaşı tökdüm.
Qaçdım qabağına hamıdan əvvəl
Dedim ki, birinci qoy özüm görüm.

Qapını tez açıb həyətə qaçdım
Həyəti boş gördüm əsdi dodağım.
Qışqırdım bəs mənim Kəmaləm hanı
Demə yuxuymuş bu gördüklərim.

Demə, bir yuxuymuş aldadan məni...
Yalançı bir yuxu gerçəkdən uzaq.
Oyandım yuxudan şəklinə baxdım
Silib göz yaşımı yenidən yatdım.
Yatdım ki, yenidən mən yuxu görəm
Gələsən yuxuma yenidən mənim.

# XƏBƏRİN OLMUR

Sənin görüşünə səndən xəbərsiz
Mən hər  gün gəlirəm xəbərin olmur.
Ay kimi gecələr göyün üzündən
Mən sənə baxıram xəbərin olmur.

Yanına gəlirəm səndən xəbərsiz
Gözə görüməyən bir mələk kimi.
Hərdən də quş olub eyvana qonub
Mən sənə baxıram xəbərin olmur.

Sakit gecələrdə küləyə dönüb
Sənin pəncərəni döyürəm hərdən.
Dayanıb bir xeyli səssiz-səmirsiz
Mən sənə baxıram xəbərin olmur.

Hərdən qəmli-qəmli oturanda sən
Bil ki, yaxınında yanındayam mən.
Oturub yanında, tutub əlindən
Hərdən saçlarına sığal çəkirəm.
Baxıram görmürsən, duymursan məni
Mən küsüb gedirəm xəbərin olmur.

## DÜNYADAN KÜSMƏYİN

Ömrü Allah verir, zaman qocaldır
Əzəldən belədi bizim dünyamız.
Həyat yaşadandı, zaman öldürən
Bəs niyə insanlar dünyadan küsür.

Ömrü yazan başqa, pozan başqası
Hələ öldürməyib dünya heç kəsi.
Kimsə öz ömrünü başa vuranda
Dünyadan inciyir , dünyadan küsür.
Küsməyin dünyadan, dünya neyləsin?!
Dünya həmin dünya, qoca dünyadı.

Yaşını bilmir heç, kimsə dünyanın
Min ildi, milyarddı, biləndə yoxdu.
Çoxları bu yolda çox baş sındırıb
Sirrini sirdaşdan gizli saxlayıb
Bir sirli dünyadı, bizim dünyamız
Küsməyin dünyadan dünya neyləsin?!
Dünya həmin dünya qoca dünyadı.

Bax, belə. Hər şeydən bir az yazdım. Heç kimlə bölüşə bilmədiyim, heç kimə deyə bilmədiyim, ürəyimdə yığılıb qalmış, həmişə məni incidən bu sözləri quru kağız parçası ilə bölüşməyə çalışdım. Ancaq bu yazdıqlarım ürəyimdə olanların çox xırda bir hissəsidir. Ürəyimdə qalanları Allah qismət etsə ruhumuz görüşəndə uzun-uzun mən onun özünə danışacam. Qoy, oxuyanlar məni qınamasınlar, mənə gülməsinlər. İnsan həyatda canından çox sevdiyi, canının bir parçası bildiyi, ən əziz adamını itirirsə dəli də ola bilər. Bax indi mən həmin o insanlardanam.

O gedən gündən mən bu gen dünyada özümə yer tapa bilmirəm. İndi mən özümü ev yiyəsinin istəmədiyi bir qonaq kimi hiss edirəm. Mən rahatlığı ancaq onun məzarı üstdə tapır, saatlarla onun məzarının önündə dayanıb ruhu ilə söhbət edirəm. Keçən günlərin acılı, şirinli xatirələri ilə yaşayıram.

Yadındadı, Kəmalə? Biz həmişə sənlə söhbət edəndə deyərdik: "kimsə kimisə yarı yolda qoysa..." Nə isə... Sən məni bu dünyada, özünü isə o dünyada tək qoydun. Tək qalmaq isə ölümdən də betərdi.

Günlər keçdikcə sənin yoxluğun məni daha da çox incidir. Hər hansı bir iş görəndə səninlə məsləhətləşirdim. O zaman qərar vermək mənim üçün asan olurdu. Ancaq indi yetim uşaq kimi söz deməyə çətinlik çəkirəm.

Bax, qarşıdan xeyir işlər gəlir. Həyatın qanunu belədi. İstəsən də, istəməsən də həyatın öz axını var. Ölüm olduğu kimi xeyir işlər, toylar da olacaq. Bilmirəm, mənim öz balalarımın xeyir işində çıxıb söz deməyə, göz yaşlarımı gizlətməyə, sənin əvəzinə xeyir dua verməyə gücüm çatacaqmı.

Bilmirəm. Bir onu bilirəm ki, mənim üçün çox çətin olacaq.

Kəmalə, şükür Allaha, övladların böyük uşaqlardı. Toyları da olacaq, evləri də, uşaqları da, hər şeyləri də. Ancaq mənim nəyim vardısa, gülüşüm, sevincim, şadlığım... Bunların hamısını sən özünlə götürüb öz məzarında dəfn etmisən. İndi mən hansısa bir dayanacaqda dayanıb qatar gözləyən adam kimi o qatara minib sənin yanına gələcəyimo anı, o dəqiqəni gözləyirəm.

Qoy, Alahım bunu mənə çox görməsin. Qoy, Allahım bizim ruhumuzu bir-birimizə qovuşdursun. Qoy, Allahım bizi o dünyada bir-birimizdən heç vaxt ayırmasın.

# MÜNDƏRİCAT

Ön söz ........................................................................ 3
Bir Mələk... Adı Kəmalə ................................................... 5
HəsrətinSonu görünməyən naləsi...................................... 8
Ağayeva Kəmalə Sabir qızı............................................. 10
Qayıt gəl ...................................................................... 66
Yuxuna gəlmişəm ........................................................... 68
Kaş sənli günlərim olaydı ............................................... 72
Niyə gəlmisən ................................................................ 82
Dünya .......................................................................... 74
Mənim dünyam .............................................................. 86
Ağlama ......................................................................... 94
Məni axtaracaqsan.......................................................... 95
Vətən ............................................................................ 97
Anam olaydı kaş............................................................. 99
Tək qoyub getdin .......................................................... 100
Yuxumda getmişdim ..................................................... 102
Kəmaləm yanımda olaydı .............................................. 103
Gəlmə məzarıma .......................................................... 105
Gözlərim axtarır səni ..................................................... 106
Vəfasız oldun ............................................................... 107
Sən gedən gündən ......................................................... 109
Xoşbəxtlik ................................................................... 111
Nəyin çatmır ................................................................ 112
Yetim qalmışam............................................................ 114
Bənövşə ....................................................................... 116

Yenə baş-başayıq ........................................................ 117
Sən getdin.................................................................... 119
Köçüm yaxınlaşıb ........................................................ 120
Küsmüsən məndən ........................................................ 122
Dəyişən zəmanə ............................................................ 123
Sən xoşbəxt adamsan .................................................... 125
Məlhəm qoy yaramın üstə.............................................. 126
Yarımçıq sevgi .............................................................. 127
Şair deyiləm .................................................................. 128
Oğluma məktub.............................................................. 129
Hanı kəmaləm mənim .................................................... 131
Yaman qocalmısan......................................................... 132
Olmasın ......................................................................... 133
Dönüb üzümə baxmadın ................................................ 134
Getmək istəyirəm ......................................................... 135
Sən yazı sevərdin .......................................................... 136
Demə yuxuymuş .......................................................... 137
Xəbərin olmur .............................................................. 138
Dünyadan küsməyin...................................................... 139

**Yaşar Qəhrəmanov**

**“Sənsiz keçən ömür”**

Bakı, “MBM” MMC, 2016, 144 səh.

Naşir: Afər Fəttahova
Bədii redaktor: Vüqar Sadayev
Texniki redaktor: Şakir Fəttahov
Dizaynerlər: Sahib Adilov, İradə Əhmədova, Mirabdulla Babayev
Operator: Tərlan Quliyeva

---

Yığılmağa verilib: 01.07.2016
Çapa imzalanıb: 22.07.2016
Kağız formatı 60x84 1/16, Ofset çap üsulu ilə
Tiraj 100, şərti çap vərəqi 9
Kitab “MBM” nəşriyyat-poliqrafiya
mətbəəsində çap olunmuşdur.
Bakı, Mətbuat pr., 529
Tel.: (99412) 539-75-06